Bizim Xəzər Dəniz Gəmiçiliyinin donanması Azərbaycanın çox böyük sərvətidir.
O, böyük işlər görür və gələcəkdə də görəcəkdir.
Heydər ƏLİYEV

# DƏNİZ

"AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ" QSC-nin qəzeti

3 avqust 2018-ci il № 57-60 (9243) | Qəzet 1931-ci ildən nəşr olunur | www.seanews.az | Qiyməti 50 qəpik

## BU SAYIMIZDA

### "Qəhrəman Əsədov" tankeri təmir olunub



*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Dəniz Nəqliyyatı Donanmasına məxsus "Qəhrəman Əsədov" tankeri təmir olunub.*

"Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda aparılan təmir çərçivəsində tankerin sualtı və suüstü hissələri, lövbər zəncirləri, kinqston qutuları təmizlənərək rənglənib.

Səh. 2

### TƏBRİK EDİRİK!

### *Rəfail Mikayılov:* "Bizə göstərilmiş etimadı doğruldacağımıza söz veririk"



*"Dənizçilik sanki böyük bir çarxdır. O çarxı yalnız zövq və məharətlə fırladaraq hədəfə çatmaq olar. Başqa cür sulara hakim olmaq mümkün deyil".*

Səh. 3

### AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ - 160

### Çətin vəziyyətlərdən baş çıxaran uzaq səfərlər kapitanı



*Fətul Həsən oğlu Fətullayev 1915-ci ildə Orconikidze (indiki Vladiqafqaz) şəhərində anadan olub.*

Səh. 4

### Qaliblərin sırasında Azərbaycan Dövlət Dəniz Akademiyası da var



*2009-cu ildən başlayaraq hər il Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının təşəbbüsü ilə "Sağlam və təhlükəsiz əmək şəraiti yaradılmasında ilin ən yaxşı müəssisəsi (təşkilatı)" adı uğrunda respublika müsabiqəsi keçirilir.*

Səh. 5

### "Dəniz kuboku - 2018" müsabiqəsinin iştirakçıları paytaxtımızın görməli yerlərində olublar




*"Dəniz kuboku - 2018" müsabiqəsində iştirak edən dövlətlərin nümayəndələri üçün mədəni proqram təşkil olunub.*

Səh. 6

### Bakı növbəti dünya çempionatına ev sahibliyi edəcək



*Bakı 2021-ci ildə batut üzərində tullanma və tambling üzrə dünya çempionatını qəbul edəcək. Beynəlxalq Gimnastika Federasiyasının (FIG) İcraiyyə Komitəsi bu qərarı Ficidə keçirilən növbəti iclasında qəbul edib.*

Səh. 8

# "Sülh istəyirlərsə, erməni əsgəri torpaqlarımızdan çıxmalıdır"

***... Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə gəldikdə isə, o həllin bir yolu var: ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Dağlıq Qarabağ bizim əzəli tarixi torpağımızdır. Bunu tarix deyir, beynəlxalq hüquq deyir və bütün dünya dövlətləri ölkəmizin ərazi bütövlüyünü tanıyır və dəstəkləyir. Keçən ay Avropa İttifaqı ilə Azərbaycan arasında paraflanmış "Tərəfdaşlıq prioritetləri" sənədində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığı ilə bağlı Azərbaycana çox böyük dəstək ifadə olunmuşdur. Bu, bizim növbəti diplomatik qələbəmizdir. Eyni zamanda, keçən ay NATO-nun zirvə görüşünün nəticəsi olaraq qəbul edilmiş bəyannamədə Azərbaycanın ərazi bütövlüyünə dəstək göstərilib. Yəni, bunlar çox ciddi siyasi sənədlərdir, həqiqəti, beynəlxalq hüququ əks etdirən sənədlərdir. Eyni zamanda, işğalçı ölkəyə göndərilən çox ciddi siqnallardır. Onlar bilsinlər ki, mötəbər beynəlxalq təşkilatlar bu məsələni diqqətdə saxlayır və Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Münaqişənin həlli yalnız bu prinsiplər əsasında ola bilər və olmalıdır.***

İşğalçı dövlət indi ağır günlər yaşayır. İyirmi il Ermənistana rəhbərlik etmiş kriminal xunta rejimi çökdü. Onların işğalçı siyasəti iflasa uğradı. Onların bu vəziyyətə düşməsinin əsas səbəbi işğal siyasətidir. Çünki əgər işğal siyasəti olmasaydı, Ermənistan regional layihələrdən təcrid edilməyəcəkdi və beləliklə, bizim imkanlarımızdan faydalana bilərdi. Məhz işğalçılıq siyasətinə görə Ermənistan bu gün bu ağır, təcrid edilmiş vəziyyətdədir və iqtisadi inkişaf üçün heç bir perspektiv yoxdur. O vaxta qədər ki, Azərbaycanla münasibətlər normallaşmayacaq. Normallaşmanın da bir yolu var – işğalçı dövlət bizim torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxmalıdır. Necə ki, dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurası 25 il əvvəl qətnamə qəbul edib və orada açıq-aydın göstərilir ki, erməni silahlı qüvvələri Azərbaycan torpaqlarından dərhal, qeyd-şərtsiz çıxarılmalıdır. Bu qətnamələr qüvvədədir və qüvvədə qalacaq. Ona görə münaqişənin həlli üçün yol, bax, bu yoldur.

Ermənistanın yeni hökuməti bunu yaxşı başa düşməlidir. Əvvəlki kriminal xunta rejiminin səhvlərini buraxmamalıdır. Düzdür, yeni hökumət indi daxili işlərlə daha çox məşğuldur, ancaq bildirməliyəm ki, onlar tərəfindən səslənən ziddiyyətli bəyanatlar həm bizdə, həm bu məsələ ilə məşğul olan ölkələrdə və beynəlxalq təşkilatlarda təəccüb doğurur. Çünki bir-birini təkzib edən bu bəyanatlar başadüşülən deyil. Bir tərəfdən deyirlər ki, Azərbaycan Ermənistanla yox, Dağlıq Qarabağın qondarma rejimi ilə danışıqlar aparmalıdır. Bu, ümumiyyətlə, qəbuledilməzdir və bu, elə bir təklifdir ki, bu təklifi verən tərəf bəri başdan bilir ki, bu, qəbul edilməyəcək. Digər tərəfdən, bu təklif vasitəçilər tərəfindən heç vaxt qəbul edilməyəcək. Üçüncü tərəfdən, o bəyanatdan bir müddət keçəndən sonra Azərbaycan və Ermənistan xarici işlər nazirləri görüşür və danışıqlara başlayır. Yəni, tamamilə bir-birini təkzib edən, bir-birinə zidd olan yanaşmadır. Əlbəttə, biz başa düşürük, yeni hökumətə müəyyən qədər vaxt lazımdır ki, beynəlxalq münasibətlərdə mövcud olan praktikanı düzgün təhlil etsin. Ancaq, əlbəttə ki, bu bəyanatlar sülh prosesinə vurulmuş növbəti zərbələrdir və bütün məsuliyyət Ermənistan rəhbərliyinin üzərinə düşür. Çünki onlar işğal siyasətini davam etdirmək fikrindədirlər. Hələlik biz belə qənaətə gələ bilərik.



Eyni zamanda, Ermənistandan sülhə yönəlmiş çağırışlar da edilir, biz də bu çağırışları eşidirik. Əlbəttə, biz də sülh istəyirik, amma biz torpaqlarımızı istəyirik. Torpaqlarımız qayıtmayana qədər sülh olmayacaq və Ermənistanın yeni rəhbərliyi bunu çox yaxşı başa düşməlidir. Sülh istəyirlərsə, erməni əsgəri torpaqlarımızdan çıxmalıdır. Erməni əsgərinin Azərbaycan torpağında nə işi var?! Müharibədən əziyyət çəkmiş, həlak olmuş, əlil olmuş Azərbaycan vətəndaşları öz torpağında həlak olublar, əlil olublar, Ermənistan torpağında yox. Ona görə münaqişənin həllinin bir yolu var – işğalçı qüvvələr bizim torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Onda bölgədə sülh yaranar. Onda Ermənistan ilə Azərbaycan arasında əlaqələr yarana bilər. Onda regionun geosiyasi vəziyyəti tamamilə dəyişə bilər və dayanıqlı sülh yarana bilər.

Biz bunu istəyirik. Ancaq, eyni zamanda, dediyim kimi, münaqişənin tezliklə və mərhələli yollarla həlli torpaqlarımızın azad olunmasından asılıdır. Biz bunu tələb edirik və beynəlxalq hüquq da bunu tələb edir. Biz öz siyasətimizdən əl çəkməyəcəyik. Əgər Ermənistan rəhbərliyi bundan sonra da danışıqların uzadılması ilə məşğul olacaqsa, biz öz təcrid siyasətimizi davam etdirəcəyik, bütün vasitələrdən istifadə edib Ermənistanı daha da sarsıdacağıq. Çünki kriminal xunta rejiminin çökməsində Azərbaycanın rolu da az deyil. Onları çökdürən və uçuruma aparan birinci zərbə iki il bundan əvvəl vurulub. Aprel döyüşləri onların çürümüş sütunlarını tamamilə sıradan çıxarıb və ondan sonra kriminal xunta rejimi uçuruma doğru getməyə başlamışdır. Bunu heç kim unutmamalıdır. Əgər iki il bundan əvvəl bu döyüşlər cəmi 4-5 gün davam edibsə və buna baxmayaraq, biz iki min hektar torpağı işğalçılardan azad etdik və indi minlərlə hektar torpağa biz nəzarət edirik. Azərbaycan Ordusunun qüdrətini iyun ayında keçirilmiş hərbi paradda göstərdik. Azərbaycan Ordusu bu gün həm texniki təchizat, döyüş qabiliyyəti, silah-sursat baxımından dünya miqyasında ən güclü ordular sırasındadır, nadir ölkələrdə bizim qədər imkan var. Bizim hərbi qələbələrimiz davam edir. Bu ilin may ayında uğurlu Naxçıvan əməliyyatı nəticəsində 11 min hektar torpaq işğalçılardan azad edildi. İndi oraya həyat qayıdır, əkin işləri aparılacaqdır.

Biz öz siyasətimizi davam etdirəcəyik, daha da güclü olmalıyıq. Bütün beynəlxalq təşkilatlar bizi beynəlxalq və siyasi müstəvidə dəstəkləyir. İqtisadi sahədə Ermənistanla Azərbaycan arasında yerlə göy qədər fərq var. Həm hərbi paradda nümayiş olunan imkanlar, həm də döyüş meydanında göstərilən şücaət, qəhrəmanlıq göstərdi ki, kim kimdir və kim nəyə qadirdir. Biz bütün bu imkanlardan istifadə edirik və edəcəyik. Biz bu vəziyyətlə heç vaxt barışmayacağıq. Bir daha demək istəyirəm, Ermənistan rəhbərliyi bilməlidir ki, sülh istəyirsə torpaqlarımızdan öz xoşu ilə çıxmalıdır.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*(Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin avqustun 1-də Bakının Qaradağ rayonunun Lökbatan qəsəbəsində Qarabağ, Böyük Vətən müharibələri, Çernobıl əlillərinə və şəhid ailələrinə mənzillərin və avtomobillərin verilməsi mərasimindəki çıxışından)*

# İlin əvvəlindən "Azəri-Çıraq-Günəşli"də hasilat 108 milyon barrel olub

***Bu ilin yanvar-iyun aylarında "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokundan hasilat 108 milyon barrel, yəni 15 milyon ton təşkil edib.***

"BP Azerbaijan" şirkətindən bildirilib ki, hesabat dövründə AÇG-dən stabil hasilat təhlükəsiz və etibarlı şəkildə davam edib. AÇG-dən ümumi hasilat – "Çıraq" (49 min), "Mərkəzi Azəri" (158 min), "Qərbi Azəri" (127 min), "Şərqi Azəri" (96 min), "Dərinsulu Günəşli" (107 min) və "Qərbi Çıraq" (59 min) platformalarından birlikdə gündəlik orta hesabla 596 min barrel olub.

İki rübdə AÇG-də ümumilikdə 116 neft hasilat quyusu, 53 qaz və su quyusu istismarda olub. Altı ayda blokda 6 neft quyusu və 2 su injektor quyusu qazılıb.

İlin ilk 6 ayında AÇG layihəsinə təqribən 236 milyon dollar əməliyyat və 552 milyon dollar isə əsaslı məsrəflər xərclənib.

AÇG-də tərəfdaşların iştirak payları bu nisbətdədir: BP - 30,37 faiz, "AzAÇG" (SOCAR) - 25 faiz, "Chevron"- 9,57 faiz, "Inpex" - 9,31 faiz, "Equinor" (Statoil) - 7,27 faiz, "ExxonMobil" - 6,79 faiz, "TPAO" - 5,73 faiz, "Itochu" - 3,65 faiz və "ONGC Videsh Limited" (OVL) - 2,31 faiz.

Xatırladaq ki, ötən il sentyabrın 14-də Azərbaycan hökuməti və SOCAR, beynəlxalq tərəfdaşlar şirkətlərlə birlikdə AÇG-nin birgə işlənməsi və Hasilatın Pay Bölgüsü haqqında dəyişdirilmiş və yenidən işlənmiş Sazişi imzalayıblar. Saziş Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən oktyabrın 31-də ratifikasiya olunub.

AÇG üzrə Hasilatın Pay Bölgüsü haqqında Sazişin podratçı tərəfləri adından "BP Exploration (Caspian Sea) Limited" şirkəti operatordur.





# Altı ayda "Şahdəniz"dən 5 milyard kubmetr təbii qaz çıxarılıb

***İlin birinci yarısında "Şahdəniz" yatağından 5 milyard kubmetr təbii qaz və 1,1 milyon ton (təqribən 9 milyon barel) kondensat hasil edilib.***

Bu barədə "BP Azerbaijan" şirkətindən məlumat verilib. Bildirilib ki, mövcud "Şahdəniz" qurğularının maksimum hasilat gücü hazırda gündəlik 32 milyon standart kubmetr və ya ildə təqribən 10,9 milyard kubmetrdir.

"Şahdəniz" yatağı Azərbaycan (SOCAR-a), Gürcüstan ("GOGC" şirkətinə) və Türkiyə ("Botaş" şirkətinə) bazarlarına və çoxsaylı obyektlər üçün BTC şirkətinə etibarlı şəkildə qaz çatdırılmasına davam edib.

Yanvar-iyun aylarında "Şahdəniz" üzrə fəaliyyətlərə təqribən 250 milyon dollar əməliyyat və 798 milyon dollar isə əsaslı xərclər sərf olunub. Əsaslı xərclərin böyük əksəriyyəti "Şahdəniz-2" layihəsinə aiddir.

"Şahdəniz"də iştirak payları belədir: BP (operator – 28,8 faiz), AzŞD (10 faiz), "SGC Upstream" (6,7 faiz), "Petronas" (15,5 faiz), "LUKoil" (10 faiz), "NICO" (10 faiz) və "TPAO" (19 faiz).

# Bakıda “Dəniz kuboku-2018” beynəlxalq yarışları keçirilir

***“Beynəlxalq Ordu Oyunları–2018” çərçivəsində Bakıda “Dəniz kuboku-2018” beynəlxalq yarışları keçirilir.***

İyulun 31-də Hərbi Dəniz Qüvvələrinin qərargahında keçirilən təntənəli açılış mərasimində Müdafiə Nazirliyinin rəhbərliyi, veteranlar, hərbçilər, iştirakçı dövlətlərdən başqa Türkiyə, Pakistan, ABŞ, Vyetnam, Səudiyyə Ərəbistanı, Bəhreyn Krallığı, Bolqarıstan və digər ölkələrin Azərbaycanda akkreditə olunmuş nümayəndələri və Hərbi Dəniz Qüvvələrinin rəhbər heyətləri iştirak ediblər.

Mərasimin aparıcıları Əməkdar İncəsənət Xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani, Əməkdar Artist Cahangir Qurbanov və Rəna Qurbanova Xalq Cümhuriyyətinin 100 illiyini təntənə ilə qeyd edən Azərbaycanda keçirilən bu yarışın əhəmiyyətini yüksək qiymətləndiriblər. Aparıcılar “Dəniz kuboku-2018”in Xəzəryanı ölkələr arasında əməkdaşlığın inkişafında rolundan söz açıblar.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Mahnı və Rəqs Ansamblının, incəsənət ustalarının və matrosların iştirakı ilə Azərbaycanın tarixi və milli adət-ənənələrini əks etdirən etnoqrafik etüdlər təqdim edilib.

Sonra “Dəniz kuboku-2018” müsabiqəsinin hakimlər briqadası və komandalar mərasimə dəvət olunub. Yarışın baş hakimi 1-ci dərəcəli kapitan Həbib Xəlilovdur.

Müsabiqə iştirakçıları - Rusiya Federasiyası Xəzər flotiliyasının, İran İslam Respublikasının, Qazaxıstan Respublikasının və Azərbaycan Respublikasının Hərbi Dəniz qüvvələrinin komandaları dövlət bayraqları altında və hərbi orkestrın müşayiəti ilə meydana daxil olublar. Mərasimdə müsabiqəyə ev sahibliyi edən Azərbaycanın dövlət himni ifa edilib, üçrəngli bayrağı qaldırılıb.

IV Beynəlxalq Ordu Oyunlarının və “Dəniz kuboku-2018” müsabiqəsinin bayraqları mərasimə gətirilib. Sonra IV Beynəlxalq Ordu Oyunlarının və “Dəniz kuboku-2018” müsabiqəsinin bayraqları dalğalandırılıb.

Mərasimdə çıxış edən “Dəniz kuboku - 2018” müsabiqəsinin təşkilat komitəsinin sədri, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin müavini - Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi, general-leytenant Nizam Osmanov tədbirin əhəmiyyətindən danışıb.

Nizam Osmanov deyib: “Artıq bir neçə gündür ki, Rusiya Hərbi Dəniz Donanmasının Xəzər flotiliyasının, İran İslam Respublikasının və Qazaxıstan Respublikasının gəmiləri Azərbaycanın Xəzər dənizindəki ərazi sularında keçiriləcək “Dəniz kuboku - 2018” müsabiqəsində iştirak etmək üçün Vətənimizə gəlib. Beynəlxalq Ordu Oyunları Rusiya Federasiyasının Müdafiə Nazirliyinin təşəbbüsü ilə təşkil olunub. İlk gündən başlayaraq Azərbaycan Respublikası Müdafiə Nazirliyinun komandaları Beynəlxalq Ordu Oyunlarında iştirak edərək xalqımızı və ordumuzun şəxsi heyətini nailiyyətləri ilə sevindirir. Keçən il Azərbaycan Hərbi Dəniz Qüvvələrinin komandası “Dəniz kuboku - 2017” müsabiqəsində qalib gələrək Rusiya Federasiyası Xəzər Dənizi Flotiliyasının komandası ilə birinciliyi bölüşüblər. Tankçılarımız, artilleriyaçılarımız, aşbazlarımız və snayperlərimiz də müvafiq müsabiqələrdə fərqləniblər. Bu il də komandalarımız Rusiya, Qazaxıstan və Belarus poliqonlarında keçirilən beş növ üzrə müsabiqədə öz güclərini sınayırlar".














Müsabiqənin təşkilat komitəsinin sədri bildirib ki, “Dəniz kuboku - 2018” ölkəmiz və xalqımız üçün əlamətdar bir vaxtda keçirilir. Biz bu il Şərqin ilk demokratik Cümhuriyyəti olan Azərbaycan Respublikasının və Silahlı Qüvvələrimizin 100 illik yubileylərini təntənə ilə qeyd etdik. Yubileylər ilində Rusiya Federasiyası, İran İslam Respublikası, Qazaxıstan Respublikası Hərbi Dəniz qüvvələrinin müsabiqə iştirakçılarını salamlamaq hər birimiz üçün xoşdur. Təşkilat Komitəsinin sədri kimi bildirirəm ki, IV Beynəlxalq Ordu Oyunları çərçivəsində Azərbaycanda keçirilən “Dəniz kuboku-2018” beynəlxalq müsabiqəsinin şəffaf və yüksək səviyyədə təşkili üçün hər cür şərait yaradılıb. Azərbaycanın Xəzər dənizindəki ərazi sularında iştirakçılar üç mərhələ və altı epizodda yarışacaqlar. Onların Vətənimizdən xoş təəssüratlarla ayrılacağına əminəm”.

Nizam Osmanov vurğulayıb ki, Beynəlxalq Ordu Oyunlarının digər yarışları kimi “Dəniz kuboku-2018” də iştirakçı ölkələrin Silahlı Qüvvələri arasında qarşılıqlı etimad mühitinin inkişafına, qarşılıqlı əməkdaşlığın möhkəmləndirilməsinə, dostluq və rəqabət gücünün artırılmasına, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlıqlarının daha da yüksəlməsinə xidmət edəcək.

Azərbaycan Respublikası müdafiə nazirinin müavini, general-leytenant Kərim Vəliyev mərasim iştirakçılarını və qonaqları salamlayıb, onlara müdafiə nazirinin təbrikini çatdırıb.

Kərim Vəliyev deyib ki, artıq ikinci ildir Xəzər dənizinin Azərbaycana aid hissəsində “Dəniz kuboku” müsabiqəsi keçirilir. Beynəlxalq Ordu Oyunlarının yarış növlərinin, komandaların sayının hər il artması və keçirilmə coğrafiyasının genişlənməsi bu oyunların əhəmiyyətinin bariz nümunəsidir. Azərbaycan Respublikasının Prezidenti, eləcə də Müdafiə Nazirliyinin rəhbərliyi Rusiya Federasiyası Müdafiə Nazirliyinin təşəbbüsü ilə reallaşan Beynəlxalq Ordu Oyunlarına xüsusi önəm verir.

"Əminəm ki, keçirilən yarışlar hərbi qulluqçularda həmrəylik hissi oyatmaqla bərabər, iştirakçıların yaddaşında xoş xatirə olaraq qalacaq. Eyni zamanda, “Dəniz kuboku” müsabiqəsi bütün iştirakçılara ölkəmizi daha yaxşı tanımaq, tarixi yerləri, abidələri görmək və xalqımızın adət-ənənələri ilə tanış olmaq imkanı yaradacaq. Yarışlar döyüş hazırlığı baxımından da böyük əhəmiyyət daşıyır. Birgə keçirilən bu oyunlar hərbi təlimlərdən heç də geri qalmır, hətta onları üstələyir. Yarış zamanı iştirakçıların üzərinə böyük məsuliyyət düşür. Hər mərhələdə hər bir iştirakçının peşəkarlığı və praktiki qərar verməsi tələb olunur", - deyə Kərim Vəliyev qeyd edib.

Nazir müavini diqqətə çatdırıb ki, birincilik əldə etmək üçün komandaların şansları bərabərdir: “Mən inanıram ki, bütün iştirakçılar hərbi vərdişlərini və məharətlərini yüksək səviyyədə nümayiş etdirəcək, əvvəlki illərdə olduğu kimi, yarışlar səmimi dostluq və qardaşlıq mühitində keçəcək. “Dəniz kuboku”nda ölkələrini təmsil etmək şərəfinə nail olmuş komanda üzvlərinə yüksək nəticələr və uğurlar arzulayıram. Güclü olan qalib gəlsin”.

Kərim Vəliyev “Dəniz kuboku” beynəlxalq müsabiqəsini açıq elan edib.

Mərasimdə incəsənət ustalarının, Azərbaycan Silahlı Qüvvələrinin və Rusiya Federasiyası Qara Dəniz Donanmasının mahnı və rəqs ansambllarının iştirakı ilə teatrlaşdırılmış kütləvi bədii proqram təqdim olunub.

“Dəniz kuboku-2018” beynəlxalq yarışlarının açılışına həsr olunmuş təntənəli mərasimin ssenari müəllifi və quruluşçu rejissoru Əməkdar İncəsənət Xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbanidir.

Qeyd edək ki, “Beynəlxalq Ordu Oyunları - 2018” yarışları çərçivəsində iyulun 28-dən avqustun 11-dək Azərbaycan, Belarus, Qazaxıstan, Çin, İran və Rusiya ərazisində, ümumilikdə, 28 müsabiqə təşkil olunacaq.

Azərbaycan hərbçiləri 5 müsabiqədə iştirak edəcəklər. Hərbçilərimiz ölkəmizdə keçiriləcək “Dəniz kuboku” ilə yanaşı, Rusiyada “Tank biatlonu” və “Səhra mətbəxi”, Qazaxıstanda “Artilleriya atəşinin ustaları” və Belarusda “Snayper həddi” müsabiqələrinə qatılacaqlar.

Hərbçilərimiz, həmçinin İranda keçiriləcək “Dərinlik” və Rusiyada təşkil olunacaq “Qoşun kəşfiyyatı əlaçıları” müsabiqələrində ölkəmizi müşahidəçi qismində təmsil edəcəklər.

Türkiyə, Pakistan, Bəhreyn, Səudiyyə Ərəbistanı və ABŞ Silahlı Qüvvələrinin nümayəndələri “Dəniz kuboku – 2018” müsabiqəsinə müşahidəçi qismində qatılıblar.

# “Qəhrəman Əsədov” tankeri təmir olunub

***“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin Dəniz Nəqliyyatı Donanmasına məxsus “Qəhrəman Əsədov” tankeri təmir olunub.***

“Zığ” Gəmi Təmiri və Tikintisi Zavodunda aparılan təmir çərçivəsində tankerin sualtı və suüstü hissələri, lövbər zəncirləri, kinqston qutuları təmizlənərək rənglənib. Avar vallları, sükan qurğusu, baş və köməkçi mühərrikləri, nasosları təmir olunub.

Bütün bunlarla yanaşı, üzən vasitənin idarəetmə sistemləri sazlanıb. Gəmidə gövdə-qaynaq işləri aparılıb, boru və elektrik quraşdırma işləri yerinə yetirilib.

Tanker təmirdən sonra yenidən istismara qaytarılıb.

“Qəhrəman Əsədov” gəmisinin uzunluğu 125.06, eni 16.63 metr, maksimal sürəti isə 11,3 uzeldir.




Xatırladaq ki, “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin tanker donanması Xəzər hövzəsində aparıcı mövqeyə malikdir. Yükdaşımalarda xüsusi çəkisini saxlamaq üçün donanmanın yeni gəmilərlə zənginləşməsinə xüsusi fikir verilir. Yaxın gələcəkdə gəmiqayırmanın son nailiyyətləri əsasında inşa olunan yeni tankerlər hesabına donanmanın daha da gücləndirilməsi planlaşdırılır.

# Bakı Limanı Strateji Yol Xəritəsində müəyyən edilmiş tədbirləri tam icra edib

***“Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi“ndə müəyyən edilmiş tədbirlərin icra vəziyyətinin monitorinq və qiymətləndirilməsində Bakı Limanı əsas icraçı qurumlar arasında öhdəliyində olan tədbirləri tam həyata keçirib.***

Bu barədə “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC-dən məlumat verilib.



Bildirilib ki, Strateji Yol Xəritəsinin 2017-ci il üzrə nəzərdə tutulan hissəsinin 86 faizinin icrası tamamlanıb, 12 faizi qismən icra edilib və 2 faizi isə icra edilməyib. Azərbaycan üzərində ticarət həcminin artırılması üçün əlverişli mühitin yaradılması işlərinin 30 faizi, tranzit ticarətindən daha yüksək dəyərin əldə edilməsi üçün aparılan işlərin 93 faizi, logistika və ticarət sahəsində məqsədlərin gerçəkləşdirilməsi üçün mühüm hərəkətverici mexanizmlərin tətbiqi üzrə isə işlərin 33 faizi tamamlanıb. 100 ballıq sistemlə dəyərləndirilən əsas icraçı qurumların performansı cədvəlində Bakı Limanı məsul olduğu 6 tədbiri uğurla başa vuraraq 100 balla dəyərləndirilib.

# Nəqliyyat və telekommunikasiya sahələrində əməkdaşlıq müzakirə olunub






***Azərbaycan ilə İran arasında nəqliyyat və telekommunikasiya sahələrində əməkdaşlıq müzakirə olunub.***

İran İslam Respublikasının Tehran şəhərində keçirilən 24-cü Beynəlxalq Elektronika, Kompüter və Elektron Ticarət (ELECOMP) sərgisində ölkəmizi nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadənin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Nazirlikdən bildirilib ki, sərgidə müxtəlif ölkələrin, o cümlədən Azərbaycanın informasiya-kommunikasiya texnologiyaları şirkətləri iştirak edib. Bir sıra yerli İKT şirkətləri ölkəmizə məxsus milli pavilyonda öz məhsul və həllərini nümayiş etdirib.

İrana səfəri çərçivəsində nazir Ramin Quluzadə İran İslam Respublikasının Prezident Aparatının rəhbəri Mahmud Vaezi, yollar və şəhərsalma naziri Abbas Əhməd Axundi və informasiya-kommunikasiya texnologiyaları naziri Məhəmməd Cavad Azəri Cəhromi ilə görüşlər keçirib.

Prezident Aparatının rəhbəri Mahmud Vaezi ilə görüşdə sərhədyanı ərazilərdə mobil şəbəkələrin, radio və televiziyaların birgə radiomonitorinqi, qanunsuz trafikin ötürülməsinin qarşısının alınması sahəsində əməkdaşlıq, yayım kanallarının koordinasiyası, interferensiya hallarının qarşısının alınması məqsədilə tezlik resurslarının koordinasiyası məsələləri müzakirə olunub. Qərara gəlinib ki, bu sahədə əməkdaşlıq üçün birgə komissiya yaradılsın.

İran İslam Respublikasının yollar və şəhərsalma naziri ilə keçirilən görüşdə beynəlxalq daşımalarda İran ilə sərhəd-keçid məntəqələrində mövcud çətinliklərin aradan qaldırılması, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi istiqamətində beynəlxalq daşımaların artırılması kimi məsələlər müzakirə olunub.

İranın informasiya-kommunikasiya texnologiyaları naziri ilə görüşdə telekommunikasiya, poçt, startap layihələrinin və startap ekosisteminin inkişaf etdirilməsi sahəsində təcrübə mübadiləsi və s. məsələlər müzakirə mövzusu olub.

Müzakirələr çərçivəsində İran şirkətləri "BakuTel-2018" beynəlxalq sərgi-konfransına dəvət olunub.

## T Ə B R İ K  E D İ R İ K !

# Rəfail Mikayılov: "Bizə göstərilmiş etimadı doğruldacağımıza söz veririk"

***"Dənizçilik sanki böyük bir çarxdır. O çarxı yalnız zövq və məharətlə fırladaraq hədəfə çatmaq olar. Başqa cür sulara hakim olmaq mümkün deyil".***

40 ilə yaxındır ki, gəmiçilik sahəsində çalışan müsahibim "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinə məxsus "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunun direktoru Rəfail Mikayılov belə deyir.

Pillə-pillə ucalıb, zəhmət çəkib, hər zaman da əməyinə dəyər verilib. Elə bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladağı Sərəncama əsasən "Əməkdar mühəndis" fəxri adına layiq görülməsi də bunun bariz sübutudur.

Rəfail Mikayılov 1964-cü ilin mart ayında anadan olub. 18 yaşından dənizçilik sahəsində çalışır. Əmək fəaliyyətinə fəhləlikdən başlayıb, hazırda Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin ən vacib müəssisələrindən birinə rəhbərlik edir.

***- Rəfail müəllim, söhbətimizə sizi tanımaqla başlayaq. Əmək fəaliyyətinizə qısa nəzər salaq.***

- Artıq 37 ildir ki, bu çətin və şərəfli işlə məşğulam. Əmək fəaliyyətinə 1981-ci ildə "Zaqfederasiya" adına Gəmi Təmiri Zavodunda tornaçı kimi başlamışam. Sonrakı illərdə həmin zavodun Texniki Nəzarət Şöbəsinin ustası və rəisi, İlham Allahverdiyev adına Gəmi Təmiri Zavodunun baş mühəndisi, Gəmi Təmiri İstehsalat Birliyinin baş direktoru vəzifələrində çalışmışam. 2013-cü ildən isə "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunun kollektivinə rəhbərlik edirəm.

**- Yaxşı bilirik ki, "Əməkdar mühəndis" fəxri adı hər kəsə verilmir. Ən azı bunun üçün illərin təcrübəsi və zəhməti lazımdır. Maraqlıdır, fəxri ada layiq görüldüyünüzü kimdən eşitdiniz və ilk təəssüratlarınız necə oldu?**

-"Əməkdar mühəndis" adının verilməsi mənim üçün tamamilə gözlənilməz oldu. Cənab Prezidentin sərəncamı mətbuatda yayıldıqdan sonra ilk təbriki "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin İnsan Resurslarının İdarəedilməsi Departamentinin rəisi Sevda xanım Məmmədovadan eşitdim. Telefon vasitəsi ilə Sevda xanımdan aldığım şad xəbərin təəssüratlarını sözlə təsvir etmək mənim üçün indi çox çətindir. Çünki, mühəndis üçün bundan yüksək və şərəfli ad ola bilməz. Verdiyi yüksək dəyərə görə möhtərəm Prezidentimiz İlham Əliyevə və "AXDG" QSC-nin sədri Rauf Vəliyevə öz adımdan və kollektivimiz adından minnətdarlığımı bildirirəm. Bizə göstərilmiş etimadı doğruldacağımıza söz veririk. Hər zaman təkcə AXDG-nin inkişafı üçün deyil, Azərbaycanın güclü, qüdrətli dövlət olması üçün əlimizdən gələni etmişik və edəcəyik.

**- Rəfail müəllim, söhbətimizin əvvəlində də qeyd etdiyimiz kimi, "Zığ" GTTZ Gəmiçiliyin vacib strukturlarındandır. İstərdim, bir qədər də zavodun fəaliyyəti haqqında danışasınız. Hansı növ xidmətləri göstərirsiniz?**

-"Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunun əsas fəaliyyət istiqaməti "AXDG" QSC-yə və başqa təşkilatlara məxsus nəqliyyat gəmiləri və texniki avadanlıqları təmir etməkdən və sifarişlər əsasında müxtəlif növ ehtiyat hissələri, xüsusi boyalar və texniki vasitələr hazırlamaqdan ibarətdir. Zavod həmçinin gəmi sistem və qurğularının, elektrik və radionaviqasiya avadanlıqlarının, mühərriklərin, cihazların quraşdırılması və sazlanmasını, dalğıc və sualtı hidrotexniki işləri, gəmilərin doka qaldırılaraq, sualtı gövdə, sükan və vintlərinin yoxlanılmasını, onların təmizləmə və rəngləmə işlərini, hava ilə doldurulan xilasetmə sallarının, hidrostatik ayırıcı qurğuların, fərdi xilasetmə vasitələrinin yoxlanılması və təmirini, ASV tipli izolyasiya edən nəfəs aparatlarına texniki xidmət göstərilməsini və həmin aparatların təmirini həyata keçirir.



**- Gəmi təmirçisinin işinin özəlliyi nədən ibarətdir? Bir neçə cümləylə necə tərif verərdiniz bu işə?**

- Gəmi təmirçisi gəmilərin istismara yararlı vəziyyətdə olmasına cavabdeh şəxsdir. O, kapitanın və ya ümumilikdə heyətin okeanın ortasındaykən düşüncələrini, hər hansı problemlə qarşılaşdıqda nələr hiss etdiyini yaxşı dərk etməlidir. Əks halda, həmin şəxs bu işin öhdəsindən gələ bilməz. Bu gün bizim kollektivimiz gəmi təmirinin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi üçün gecə-gündüz əlindən gələni edir. Bunun nəticəsidir ki, ilbəil təmir edilən gəmilərin sayı artmaqda davam edir.

**- Peşəkar dənizçi-mühəndis kimi gənclərə tövsiyələriniz?**

- Bu gün kollektivimizdə bizimlə çiyin-çiyinə çoxlu gənc çalışır. Tövsiyəm ondan ibarətdir ki, onlar bu şərəfli peşəni ürəkdən sevsinlər, bu sənətin incəliklərinə dərindən yiyələnsinlər, işlərinə məsuliyyətlə yanaşsınlar, təcrübi və nəzəri biliklərini daha da artırsınlar, çətinliklərdən qorxmasınlar. Gənclər dərk etməlidirlər ki, onlar bizim gələcəyimizdir. Ən əsası, yadda saxlamaq lazımdır ki, dövlətimizin iqtisadi inkişafında mühüm rol oynayan Gəmiçilikdə işləmək şərəfli və qürurludur.

# Gəmi təmiri uşaqlıqdan sevimli peşələri arasında ilk yerlərdən birini tutub

***"İşə məsuliyyətlə yanaşanda, lazımi səy göstərəndə karyera yüksəlişi əldə edə və cəmiyyətdə mövqeyi olan birinə çevrilə bilərik".***

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinə məxsus Xəzər Dəniz Neft Donanmasının Gəmi təmiri emalatxanasının rəisi Hüsaməddin Babayev belə deyir.

Müvəffəqiyyətin sirrini çox çalışmaqda görən Hüsaməddin Babayev sevdiyi, zövq aldığı işlə məşğul olduğu üçün özünü xoşbəxt sayır.

1960-cı il yanvarın 4-də Qərbi Azərbaycanın Zəngəzur mahalının Qafan şəhərində anadan olan Hüsaməddin Babayev Azərbaycan Dövlət Neft və Kimya İnstitutunu bitirib. Gəmiçilik isə uşaqlıqdan sevimli peşələri arasında ilk yerlərdən birini tutub və 40 ilə yaxındır ki, bu sahədə yorulmadan külüng vurur.

**- Hüsaməddin müəllim, karyeranıza nə vaxt və hardan başladığınızı yəqin ki, unutmamısınız?**

- Əlbəttə ki, yox. İlk iş yerim Gəmi Təmiri Zavodu olub. Orada gəmi-gövdə təmirçisi kimi fəaliyyətə başlamışam. Sizə 1981-ci ildən danışıram…Daha sonra müxtəlif illərdə gəmi gövdəsi üzrə texnoloq, həmin sahə üzrə usta, gəmi-gövdə sahəsinin baş ustası vəzifələrində işləmişəm. Hazırda isə Gəmi Təmiri Emalatxanasının rəisiyəm.

**- Gəmiçiliyə marağınız uşaqlıqdan olub. Bəs, nə üçün məhz gəmi təmiri sahəsinə üz tutdunuz?**



- Gəmiçilik deyəndə çoxlarının ağlına yalnız sular qoynunda üzənlər - kapitan, mexanik, matros və s. gəlir. Amma bu sahədə digər peşələr də var. Onlardan biri də gəmi təmiri peşəsidir. Olduqca vacib, çətin və maraqlı peşədir. Elə bu üç səbəbə görə mən də gəmi təmirçisi peşəsini seçdim. Mənim üçün işin vacibliyi, çətinliyi və onun maraqlı olması çox önəmlidir.

**- Gəmi Təmiri Emalatxanasının fəaliyyəti, gördüyü işlər barədə məlumat verərdiniz**

- Gəmi Təmiri Emalatxanasının əsas məqsədi yerləşdiyi yer və üzmə rayonundan asılı olmayaraq gəmilərin tam işlək vəziyyətdə olmasını təmin etməkdən ibarətdir. Gəmilərin iş rejiminə uyğun olaraq Emalatxana təmir prosesini fasiləsiz yerinə yetirir. Mexaniki və elektrik sahələri üzrə səyyar briqadalarımız növbəli iş rejimində istənilən yerdə təmir xidməti göstərə bilir.

**- Emalatxana hansı bölmələrdən ibarətdir?**

- Gəmi Təmiri Emalatxanası mexaniki, elektrik və elektronika, nəzarət ölçü cihazlarının yoxlama laboratoriyası, gəmi-gövdə təmiri sahəsi, akkumulyator və gəmi-gövdə takelaj sahəsindən ibarətdir. Mexaniki sahənin çilingərləri istənilən gəminin mexanizmlərini təmir edirlər. Elektrik və elektronika sahəsinin elektrik və elektronçuları gəminin bütün elektrik, elektronika avadanlıqlarının vaxtında və keyfiyyətlə təmirini həyata keçirirlər. Biz gəmilərin tərsanə təmiri ilə də məşğuluq. Tərsanə təmiri gəmi-gövdə təmirçiləri, takelajçılar, rəngsazlar və elektrik-qaz qaynaqçıları tərəfindən görülür.

**- Bu günlərdə Prezident İlham Əliyevin sərəncamı ilə "Tərəqqi" medalına layiq görülmüsünüz. Bununla bağlı təəssüratlarınız maraqlıdır.**

- Təltif olunmağımı ilk dəfə iş yoldaşlarımdan eşitdim. Daha sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dəniz nəqliyyatı işçilərinin təltif edilməsi haqqında sərəncamını oxudum. Adımı təltif olunanların siyahısında görəndə çox sevindim və qürur hissi keçirdim. Əməyimə verilən qiymətə görə möhtərəm Prezidentimizə və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyevə dərin minnətdarlığımı bildirirəm. Bu etimad insanı daha yüksək nailiyyətlər qazanmağa sövq edir.

**- Son olaraq fəaliyyətə yeni başlayan gənclərə nə tövsiyə edərdiniz?**

- Tövsiyəm ondan ibarətdir ki, işdən qorxmasınlar, məsuliyyətli olsunlar. Bu keyfiyyətlər onları gec-tez uca yerə yetişdirəcək.

*Rövşən ABDURƏHMANOV*

# Bakı metrosu MDB məkanında ən ucuz qiymətə sərnişindaşıma həyata keçirir

***Avqustun 1-dən metroda sərnişindaşıma yeni tariflərlə həyata keçirilir. Belə ki, bir gedişin qiyməti Tarif Şurasının qərarı ilə 30 qəpik müəyyən olunub.***

"Bakı Metropoliteni" QSC-nin mətbuat katibi Bəxtiyar Məmmədov deyib ki, "Bakı Metropolitenində sonuncu dəfə tarif dəyişikliyi 2011-ci ilin dekabrın 1-də olub. Həmin il noyabr ayının 24-də Tarif Şurasının verdiyi qərara əsasən qiymətlər 15 qəpikdən 20 qəpiyə dəyişdirilib. Həmin dövrdən bu zamana qədər metroda heç bir tarif dəyişikliyi baş verməyib. Metropoliten maliyyə məsələlərində obyektiv və şəffaf mövqe tutur, hər il öz maliyyə hesabatlarını dərc elətdirir, müvafiq səlahiyyətli strukturlar qarşısında hesabatlar, məlumatlar verir.

"Metroda bir sərnişin daşınmasının istismar xərcləri 47 qəpiyə bərabərdir. Hətta son tarif dəyişikliyindən sonra da arada 17 qəpiklik fərq olacaq. Qeyd edim ki, 47 qəpiklik istismar xərcinə metro stansiyaların, tunellərin inşası, yeni qatarların alınması, təmiri, modernləşdirilməsi, mövcud stansiyaların infrastrukturunun yenidən qurulması daxil deyil", - deyə B.Məmmədov vurğulayıb.

Onun sözlərinə görə, hazırda metro ilə sərnişindaşıma xidmətinin tarifi Rusiyada 0,80-1,50 manat, Qazaxıstanda 0,20-0,40 manat, Belarusda 0,48-0,56 manat, Gürcüstanda 0,35 manat, Türkiyədə 0,44-1,75 manat təşkil edir. Kiyevdə də bu yaxınlarda metroda sərnişindaşımanın qiyməti qalxıb. Bu isə, bizim hazırkı valyuta kursu ilə 47-50 qəpik arasında dəyişir. Bir sözlə MDB məkanına baxsaq yenə ən ucuz tariflər Bakıdadır. Rusiyaya nəzər salsaq görərik ki, bu ölkə metro sahəsi ilə bağlı böyük potensiala malikdir. Burada qatarların inşasından tutmuş metro ilə bağlı bir çox sahələr üzrə müəssisələr mövcuddur. Lakin buna baxmayaraq, Rusiyada da metroda gediş haqqı Bakıdakı qiymətlərdən daha yüksəkdir.



# Tariflərin yenidən müəyyən olunması sərnişindaşımada vətəndaşlara daha keyfiyyətli xidmət göstərilməsinə imkan yaradacaq

***Tariflərin yenidən müəyyən olunması sərnişindaşımada vətəndaşlara daha yüksək və keyfiyyətli xidmət göstərilməsinin mərhələli şəkildə icrasına gətirib çıxaracaq.***

Bu barədə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin (DANX) ictimaiyyətlə əlaqələr sektorunun müdiri Nuridə Allahyarova deyib.

O bildirib ki, DANX Bakı, Sumqayıt və Gəncə şəhərləri istisna olmaqla respublikanın digər şəhər və rayonlarında şəhərlərarası daşımalarla bağlı dövlət tənzimlənməsini həyata keçirir. Bu sahədə xidmət ayrı-ayrı hüquqi və fiziki şəxslər tərəfindən göstərilir. Sonuncu dəfə avtobus marşrutları ilə sərnişindaşıma xidmətlərinin tariflərinin yuxarı həddi 2007-ci ildə müəyyən olunub. Bu müddət ərzində, bildiyiniz kimi, nəqliyyat parklarının istismar və daşıma xərcləri artıb. Təbii ki, digər sahələrdə olduğu kimi, sərnişindaşımada da xidmət keyfiyyətinin artırılması daşıyıcılar qarşısında qaldırılsa da, sərnişindaşıma tariflərinin aşağı olması daşıyıcılara avtobus parkının yenilənməsi üçün investisiya qoyuluşuna imkan vermirdi və daşıyıcılar uzun müddətdir ki, bu problemin həlli ilə bağlı nazirliyə və digər müvafiq qurumlara çoxsaylı müraciətlər edirdi.

N.Allahyarovanın sözlərinə görə, bu müraciətlər əsasında mövcud vəziyyət detallı təhlil edilərək xidmət keyfiyyətinin artırılması, avtobus parkının yenilənməsi, müasir və dayanıqlı daşımanın həyata keçirilməsi üçün tariflərə yenidən baxılması məqsədə müvafiq hesab olunaraq Tarif Şurasına müraciət edilib. Tariflərin yuxarı həddinin yenidən müəyyən olunması sərnişindaşıma fəaliyyəti göstərən daşıyıcılara maliyyə vəziyyətini sağlamlaşdırmaq və nəticədə vətəndaşa daha yüksək və keyfiyyətli xidmət tələbinin mərhələli şəkildə icrasına gətirib çıxaracaq.

Qeyd edək ki, müntəzəm şəhərlərarası avtobus marşrutları üzrə 1 kilometr üçün 2,4 qəpik təsdiq edilib.

# AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ - 160

## UNUTSAQ, UNUDULARIQ

### Çətin vəziyyətlərdən baş çıxaran uzaq səfərlər kapitanı



***Fətul Həsən oğlu Fətullayev 1915-ci ildə Orconikidze (indiki Vladiqafqaz) şəhərində anadan olub.***

1936-cı ildə Bakı dənizçilik texnikumunu "Uzaq səfərlər gəmi sürücüsü" ixtisası ilə bitirib və Xəzər Dəniz Gəmiçiliyinin gəmilərində əmək fəaliyyətinə başlayıb. Özünə qarşı tələbkarlığı ilə seçilən gənc tezliklə dənizçilər arasında nüfuz qazanıb. Neft donanmasının qabaqcıllarından olub.

F.Fətullayevin liderlik keyfiyyətləri və təşkilatçılıq qabiliyyəti Böyük Vətən müharibəsi illərində özünü xüsusilə biruzə verib. 1942-ci ildə kapitan göyərtəsinə qalxıb. Müharibə illərində iritonnajlı "ÜKP(b)" tankerində böyük istehsal riski olan yüklərin – hərbi sursatın, döyüş texnikasının və yanacağın daşınmasını həyata keçirib. Kapitanı olduğu gəmi dəfələrlə aviahəmlələrə məruz qalıb. Belə şəraitdə kapitan kimi xüsusi bacarıq və şücaət göstərib.

Müharibədən sonrakı illərdə F.Fətullayev tankerlərdə işləməkdə davam edib. Qabaqcıl metodlardan məharətlə istifadə edərək böyük nailiyyətlər əldə edib. Xəzərdə neftin yeni xətlərlə - Neft Daşlarından və Çələkəndən daşınmasında fəal iştirak edib. İyirmi il hami kapitan kimi donanma üçün təcrübəli kadrlar hazırlayıb.

Fətul Fətullayevin fədakar əməyi "Qırmızı Ulduz" və "Oktyabr İnqilabı" ordenləri, "Qafqazın müdafiəsinə görə", "1941-1945-ci illərdə Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə", "Əmək rəşadətinə görə", "Əməkdə fərqlənməyə görə" medalları ilə qiymətləndirilib. "Dəniz donanmasının fəxri işçisi" və "Xəzərin veteranı" olub.

### Etimadı doğrultmağı bacarırdı



***Milliyyətcə polyak olan Vatslav Vikentyeviç Danitski 1918-ci il dekabrın 7-də Ukraynanın Xmelnitski vilayətinin Bojikovets kəndində anadan olub.***

1938-ci ildə Odessa Dəniz Donanması Mühəndisləri İnstitutuna daxil olub. "Dəniz donanmasının istismarı" fakültəsində təhsil alan gənc bir müddət Odessa gəmi təmiri zavodunda çakicvuran işləyib.

1943-cü il iyulun 23-də təhsilini başa vuran Vatslav Danitski göndərişlə Bakıdakı "Xəzərtanker" idarəsinə gəlib. 1943-1948-ci illərdə dispetçer, dəniz agenti, özü hərəkət etməyən gəmilərdə kapitan işləyib. 1949-cu ildən etibarən əmək fəaliyyətini Xəzər Dəniz Neft Donanması İdarəsində davam etdirib. 1949-1964-cü illərdə mühəndis, dispetçer, İstimar xidmətinin rəisi vəzifələrində çalışıb. Əməksevərliyi, dərin biliyi və əzmkarlığı ilə kollektivdə böyük hörmət qazanıb.

Zəngin təcrübəsi, təşkilatçılıq qabiliyyəti və nəcib insani keyfiyyətləri ilə seçilən Vatslav Vikentyeviç 1964-cü ildə Xəzər Dəniz Neft Donanması İdarəsinin rəisi təyin edilib və 1985-ci ilədək bu vəzifədə çalışıb.

V.Danitskinin Xəzər Dəniz Neft Donanması İdarəsinin maddi-texniki bazasının möhkəmləndirilməsində və müxtəlif təyinatlı gəmilərin modernləşdirilməsində əvəzsiz xidmətləri olub. "Qırmızı Əmək Bayrağı" ordeni, "Böyük Vətən müharibəsi illərində rəşadətli əməyə görə" və "Yanğınsöndürmədə igidliyə görə" medalları ilə təltif olunub. "SSRİ-nin fəxri neftçisi" və "Azərbaycan SSR-nin əməkdar mühəndisi" fəxri adlarına layiq görülüb. SSRİ Nazirlər Soveti mükafatının laureatı olub.

### Tələbkar olduğu qədər də qayğıkeş olub



***Aydın Əsədulla oğlu Bədirxanov 1935-ci il martın 8-də Astara şəhərində anadan olub.***

Orta təhsilini doğma şəhərində alan Aydın Bədirxanov 1954-cü ildə Bakıya gələrək, Sabunçu qəsəbəsindəki 1 №-li texniki məktəbə daxil olub. 1956-cı ildə həmin məktəbi "gəmi sürücüsü" ixtisası üzrə bitirərək, Azərbaycan SSR Neft Sənayesi Nazirliyi nəzdində fəaliyyət göstərən "Xəzərdənizneftdonanma"nın "İliç buxtası" dəniz nəqliyyatı kontoruna məxsus "M. Əliyev" gəmisində matros kimi işə başlayıb. Çalışqanlığı ilə seçilən gənc bir il sonra kiçik katerə kapitanın böyük köməkçisi, üç il sonra isə kapitan təyin edilib.

Rəhbərlik gənc dənizçinin bacarıq və öyrənmək həvəsini görüb, ona istehsalatdan ayrılmadan təhsilini davam etdirməyə imkan yaradıb. Aydın Bədirxanov 1958-ci ildə Odessa Su Nəqliyyatı Mühəndisləri İnstitutuna daxil olub və 1964-cü ildə "Su nəqliyyatının istismarı" fakültəsini "istismarçı mühəndis" ixtisası üzrə bitirib. Ali təhsilli mütəxəssis 1964-1966-cı illərdə mühəndis-dispetçer, 1966-1976-cı illərdə isə Bulla adasının istismar sahəsində rəis - böyük mühəndis vəzifələrində çalışıb.

Məsuliyyəti və özünə tələbkarlığı ilə seçilən Aydın Bədirxanov 1976-cı ilin martında "Xəzərdənizneftdonanma"ya məxsus Dəniz Neft Limanına, dörd il sonra isə Cənub rayon idarəsinə rəis təyin edilib. Məsul vəzifələrdə püxtələşən A. Bədirxanova 1985-1987-ci illərdə və 1996-cı ildə "Xəzərdənizneftdonanma" İdarəsinə rəhbərlik etmək həvalə olunub. Peşəkarlığı, tələbkarlığı ilə bərabər, həm də diqqət və qayğısı ilə kollektivdə böyük nüfuz qazanıb.

A. Bədirxanov 1996-1998-ci illərdə Cənub rayon idarəsinin rəis müavini işləyib.

Vicdanlı və qüsursuz fəaliyyəti yüksək qiymətləndirilən A. Bədirxanov 1970-ci ildə "Əmək rəşadətinə görə", 1985-ci ildə "Əmək veteranı" medalları və 1986-cı ildə "Xalqlar Dostluğu" ordeni ilə təltif edilib.

Aydın Bədirxanov 1998-ci il mayın 15-də 63 yaşında dünyasını dəyişib.

***Sevda ABDULLAYEVA,***
*İctimaiyyətlə əlaqələr departamentinin mütəxəssisi*

## TANAP-la "Şahdəniz-2" qazı ilə yanaşı, Xəzərdəki digər yataqların qazı da daşınacaq

***Trans-Anadolu (TANAP) boru kəməri "Şahdəniz-2" qazından savayı Xəzər dənizindəki digər yataqların təbii qazını da daşıya biləcək.***

Bu barədə "SOCAR Turkey Enerji A.Ş."nin (STEAŞ) xarici əlaqələr üzrə departamentinin rəhbəri Murat LeCompte deyib.

O bildirib ki, Türkiyə əvvəllər Bakı-Tbilisi-Ceyhan, Kərkük-Yumurtalıq boru kəmərləri və boğazlar vasitəsilə xam neft üçün keçid rolunu oynayırdı. İndi isə Türkiyə üzərindən Avropaya təbii qaz daşınacağı üçün Türkiyə Avropanın enerji təhlükəsizliyinə öz töhfəsini verən ölkə olacaq. TANAP Türkiyə ərazisindən keçdikdən sonra Cənub Qaz Dəhlizinin Avropa seqmenti olan "Trans-Adriatik" (TAP) boru kəmərinə birləşəcək. TAP-la Azərbaycan təbii qazı ilk dəfə Avropa bazarına çatdırılacaq.

M.LeCompte qeyd edib ki, TANAP ilkin mərhələdə "Şahdəniz-2" yatağından hasil olunacaq təbii qazı nəql edəcək. Gələcəkdə isə Xəzər dənizindəki digər yataqlardan və bölgələrdən asanlıqla təbii qaz daşıya biləcək: "TANAP-ın inşasında 10 min nəfər birbaşa və ya bilavasitə çalışıb. İndiyədək layihə üzrə 82 milyon nəfər/saat iş görülüb. TANAP-ın tikinti işləri bitməyib və hələ də davam edir. Boru kəmərinin Əskişəhərə qədər olan hissəsi tamamlanıb və istifadəyə verilib. Ancaq Əskişəhərdən İpsalaya qədər, yəni Avropaya qaz daşıyacaq hissə üzrə tikinti işləri davam edir. TANAP-ın birbaşa investisiya məbləği 8 milyard dollardır".

TANAP layihəsinin təbii qazın qiymətinə təsirindən danışan M.LeCompte deyib ki, gələcəkdə başqa qaz mənbələri də Türkiyə üzərindən keçə bilər və burada "hub" adı verilən enerji mərkəzi yaranarsa bunun qiymətə müsbət təsiri olacaq.

Qeyd edək ki, Avropa İttifaqı üçün prioritet enerji layihələrindən biri olan Cənub Qaz Dəhlizinin seqmentlərini "Şahdəniz-2", CQBKG, TANAP və TAP layihələri təşkil edir. Bu boru kəmərləri zənciri Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya çatdıracaq. Uzunluğu 3 min 500 kilometr olan "Cənub Qaz Dəhlizi" vasitəsilə ilkin mərhələdə Türkiyəyə 6 milyard kubmetr, Avropaya 10 milyard kubmetr qaz nəqli planlaşdırılır. TANAP layihəsi üzrə Faza-0, yəni Türkiyəyə ilk təbii qazın verilməsi üçün işlər yekunlaşıb. İyunun 30-dan "Şahdəniz-2" üzrə Türkiyəyə ilk kommersiya qazının tədarükünə başlanılıb.

"Şahdəniz-2" layihəsi üzrə ümumi kapital xərclər hazırda 22,7 milyard dollardır və mayın sonuna kimi bu layihəyə 17,8 milyard dollar xərclənib. Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi (CQBKG) layihəsinin dəyəri isə 4,5 milyard dollardır və mayın sonuna həmin layihəyə 4,2 milyard dollar sərf edilib. TANAP layihəsinin dəyəri 8 milyard dollar qiymətləndirilir və mayın sonunadək bu layihəyə 5,5 milyard dollar xərclənib. TAP layihəsi üzrə isə kapital xərcləri 4,5 milyard avrodur və may ayının sonuna bu layihəyə 3 milyard avro sərf olunub.

Azərbaycan "Cənub Qaz Dəhlizi" layihəsi üzrə maliyyə öhdəliklərinin 80 faizini icra edib. Layihə üzrə "Cənub Qaz Dəhlizi" QSC-nin 2020-ci ilə kimi (daxil olmaqla) payına düşən layihə xərcləri 11,4 milyard dollar təşkil edir. Bu ilin may ayının sonuna artıq 9,1 milyard dollar, yəni təqribən 80 faizi investisiya edilib.

Mayın 29-da Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi keçirilib və Azərbaycan təbii qazı Cənub Qaz Dəhlizi sisteminə vurulub. İyunun 12-də Türkiyənin Əskişəhər şəhərində TANAP qaz kəməri istifadəyə verilib. TAP boru kəmərinin isə 2020-ci ildə istismara verilməsi gözlənilir. TANAP üzrə ümumi işlərin 94,8 faizi, TAP-la bağlı isə 74,6 faizi yerinə yetirilib.



## Aralıq dənizinin İspaniya sahillərində 200-dən çox miqrant xilas edilib

***İspaniya sahil mühafizə xidmətinin əməkdaşları Aralıq dənizində köməksiz vəziyyətdə qalan 211 miqrantı xilas ediblər.***

"figaro.fr" saytı xəbər verir ki, 11 qayıqda olan 200-dən çox miqrant İspaniya ilə Mərakeşi ayıran Cəbəllütariq boğazında sahilə çıxarılıb. Onlar İspaniyanın cənubunda yerləşən Əndəlis bölgəsindəki Əlcəzirə limanına aparılıblar.

## Azərbaycan əhalisinin sayı 9 milyon 929 min 513 nəfərə çatıb

***Ölkə üzrə əhalinin sayı ilin əvvəlindən 31 min 428 nəfər və ya 0,3 faiz artaraq bu il iyun ayının 1-i vəziyyətinə 9 milyon 929 min 513 nəfərə çatıb.***



Dövlət Statistika Komitəsindən verilən məlumata görə, bir kvadrat kilometrə düşən əhalinin sayı 115 nəfər olub.

Əhalinin ümumi sayından 52,9 faizini şəhər, 47,1 faizini kənd sakinləri, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir. Hazırda hər 1000 kişiyə 1005 qadın düşür.

Bu ilin 5 ayında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 55 min 653 doğulan körpə qeydə alınıb və bu göstərici əhalinin hər 1000 nəfərinə 13,7 təşkil edib. Doğulan körpələrin 53 faizi oğlan, 47 faizi isə qız uşaqlarıdır. Körpələrdən 1048-i əkiz, 39-u üçəm doğulanlardır.

Cari ilin yanvar-may aylarında ölkədə 25 min 277 ölüm halı qeydə alınıb və əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi 6,2 təşkil edib.

Beş ay ərzində qeydiyyat şöbələri tərəfindən 22 min 489 nikah və 6 min 177 boşanma halları qeydə alınıb və əhalinin hər 1000 nəfərinə nikahların sayı 5,5, boşanmaların sayı isə 1,5 olub.

Yanvar-may ayları ərzində Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən daimi yaşamaq üçün 1605 nəfər Azərbaycana gələn, 553 nəfər isə Azərbaycandan gedən qeydə alınaraq, miqrasiya saldosu müsbət 1052 nəfər təşkil edib.



## Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin Azərbaycan hissəsində daşınmış yüklərin həcmi açıqlanıb

***2018-ci ilin yanvar-may aylarında Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin Azərbaycan hissəsində daşınmış yüklərin həcmi 21 milyon 341 min ton, yük dövriyyəsi isə 4 milyard 573,3 milyon ton-kilometr olub.***

Dövlət Statistika Komitəsindən bildirilib ki, yüklərin 13 milyon 277,5 min tonu və ya 62,2 faizi avtomobil nəqliyyatı, 5 milyon 10,1 min tonu və ya 23,5 faizi dəmir yolu nəqliyyatı, 3 milyon 53,4 min tonu və ya 14,3 faizi dəniz nəqliyyatı ilə daşınıb.

Dəhliz vasitəsilə daşınmış yüklərin 19,4 faizini və ya 4 milyon 133,2 min tonunu tranzit yüklər təşkil edib.



## Axtarış işlərinə 15 gəmi cəlb olunub

***Çinin Şanxay şəhəri ərazisində sahil sularında yük gəmisinin aşması nəticəsində 10 nəfər itkin düşüb.***

Hadisə səhərin erkən saatlarda 3 min ton polad material daşıyan "Shunqiang 2" gəmisinin başqa bir gəmi ilə toqquşması nəticəsində baş verib. Hadisə baş verən zaman gəmidə 13 heyət üzvü olub. Onlardan üçü xilas edilib.

Hadisə yerində axtarış işləri davam etdirilib. Axtarış işlərinə 15-ə yaxın gəmi cəlb olunub.

***Şahin Cəfərov***

# Qaliblərin sırasında Azərbaycan Dövlət Dəniz Akademiyası da var





***2009-cu ildən başlayaraq hər il Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının təşəbbüsü ilə "Sağlam və təhlükəsiz əmək şəraiti yaradılmasında ilin ən yaxşı müəssisəsi (təşkilatı)" adı uğrunda respublika müsabiqəsi keçirilir. Ötən dövr ərzində bu tədbirə 9328 müəssisə və təşkilat qatılıb, onlardan 297-si bu yüksək ada layiq görülərək fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıb.***

Bu günlərdə Bakı Biznes Mərkəzində "Sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üzrə 2017-ci ilin ən yaxşı müəssisəsi (təşkilatı)" respublika müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

Sevindirici haldır li, qaliblərin sırasında Azərbaycan Dövlət Dəniz Akademiyası da var. Akademiyamıza qiymətli hədiyyə - televizor və fəxri fərman təqdim olunub.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev çıxışında bildirib ki, dövlət başçısı İlham Əliyev tərəfindən 2016-cı il dekabrın 6-da təsdiq olunmuş Strateji Yol Xəritəsində inklüziv məşğulluğun artırılması, əmək məhsuldarlığının yüksəldilməsi, əmək hüquqları və təminatlarının etibarlı müdafiəsi kimi vəzifələr nəzərdə tutulub.

2017-ci ildə "Sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üzrə ilin ən yaxşı müəssisəsi (təşkilatı)" devizi ilə keçirilən respublika müsabiqəsinin yekunlarına görə AHİK-in müsabiqə komissiyası 193-dən çox müəssisənin namizədliyini İcraiyyə Komitəsinin müzakirəsinə çıxarıb və 22 sahə həmkarlar ittifaqını təmsil edən 48 müəssisə, təşkilat, sex və sahə daim yüksək göstəricilərə nail olduğuna görə qalib elan olunub.

S.Möhbalıyev müsabiqə qaliblərini qazandıqları yüksək nailiyyətə görə təbrik edib, onlara gələcək əmək fəaliyyətlərində uğurlar arzulayıb.

# D230 bloku üzrə Azərbaycanın öhdəlikləri təsdiqlənib



***Xəzərdəki D230 perspektiv kəşfiyyat bloku üzrə Azərbaycanın təminat və öhdəlikləri təsdiq edilib.***

Nazirlər Kabineti "Xəzər dənizinin Azərbaycan sektorunda D230 perspektiv kəşfiyyat blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə BP Eksploreyşn (Azərbaycan) Limited və SOCAR-ın Ortaq Neft Şirkəti arasında Saziş"ə Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri barədə" Qərar qəbul edib.

Qərara əsasən, "Xəzər dənizinin Azərbaycan sektorunda D230 perspektiv kəşfiyyat blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə BP Eksploreyşn (Azərbaycan) Limited və SOCAR-ın Ortaq Neft Şirkəti arasında Saziş" üzrə Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri təsdiq olunub.

Qeyd edək ki, D230 bloku Xəzər dənizində Bakının şimal-şərq istiqamətində təxminən 135 kilometr (84 mil) məsafədə yerləşir. Blok təxminən 3 min 200 kvadratkilometr ərazini əhatə edir. Blokun məhsuldar laylarının gözlənilən dərinliyi təxminən 3 min 500 metrdir.

Bu il aprelin 26-da Londonda Prezident İlham Əliyev və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Meyin iştirakı ilə SOCAR, "BP Exploration (Azerbaijan) Limited" şirkəti və SOCAR-ın Ortaq Neft Şirkəti arasında D230 perspektiv blokunun birgə kəşfiyyatı və işlənilməsi üzrə hasilatın pay bölgüsü (HPBS) haqqında saziş imzalanıb. Sənədi SOCAR-ın prezidenti Rövnəq Abdullayev və BP şirkətinin baş icraçı direktoru Robert Dadli imzalayıb.

25 illik müddəti əhatə edən hasilatın pay bölgüsü haqqında sazişə əsasən BP 50 faiz iştirak payına malik olmaqla kəşfiyyat dövründə operator olacaq, iştirak payının digər 50 faizi isə SOCAR-a məxsus olacaq.

Bundan əvvəl, 2016-cı ilin may ayında BP D230 blokunda geoloji kəşfiyyat işlərinin aparılması haqqında SOCAR-la Qarşılıqlı Anlaşma Memorandumu imzalamışdı.

# Bakı Fransız Liseyinin şagirdləri ADDA-da

***Bakı Fransız Liseyinin şagirdləri müəllimlər Frederik Ştaynbauer, Malik Vakavi və Filip Giq ilə birlikdə təhsil prosesi və maddi-texniki baza ilə tanışlıq üçün Azərbaycan Dövlət Dəniz Akademiyasının qonağı olublar.***

Müxtəlif naviqasiya və maşın şöbəsi simulyatorları, gəmi dizel mühərrikləri, ADDA-nın tarix muzeyi şagirdlərdə böyük maraq doğurub. ADDA-nın auditoriyalarında qonaqlara gəmi hissələri haqqında məlumat verilib, dəniz düyünlərinin bağlanması əyani olaraq göstərilib. Akademiyanın müəllimləri Balakişi Salmanov, Ədalət Əzimov, İmdadəli Əsədov və Elnur Kərimov maşın, mexanizm və simulyatorların iş prinsiplərini izah ediblər, yeniyetmələrin bütün suallarına ətraflı cavab veriblər. Sonda şagirdlərə kiçik










tapşırıqlar verilib, dəniz işini mənimsəmələri yoxlanılıb.

Qeyd edək ki, Bakı Fransız Liseyi Azərbaycanda müvəqqəti və daimi yaşayan fransızdilli əcnəbilərin, habelə Azərbaycan vətəndaşlarının fransız dilində təhsil alması məqsədilə yaradılıb.

2011-ci ilin mart ayında Heydər Əliyev Fondu, Fransanın Azərbaycandakı Səfirliyi, Azərbaycan Dövlət Neft Şirkəti və Təhsil Nazirliyi arasında Bakıda fransız liseyinin tikintisi ilə əlaqədar niyyət bəyannaməsi imzalanıb, oktyabr ayında isə Azərbaycan və Fransa Prezidentlərinin iştirakı ilə liseyin təməlqoyma mərasimi keçirilib.

2014-cü il sentyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakı Fransız Liseyinin açılışında iştirak ediblər.

# "Xilas edən matros" vakansiyası üzrə peşə sınağı keçirilib





***SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin (TTSİ) Dənizdə insan həyatının mühafizəsi üzrə təlim mərkəzində (DİHMÜTM) şirkətin "Azneft" İstehsalat Birliyinin Dalğıc Xidmətinin sifarişinə uyğun "Xilas edən matros" vakansiyası üzrə peşə sınaq imtahanı keçirilib.***

TTSİ xəbər verir ki, "Xilas edən matros" vakansiyası üzrə peşə sınaq imtahanı SOCAR-ın İnsan Resurslarının İdarəedilməsi Departamentinin nümayəndələrinin, TTSİ-nin Dənizdə insan həyatının mühafizəsi üzrə təlim mərkəzinin əməyin mühafizəsi və təhlükəsizlik texnikası üzrə mütəxəssisinin, böyük dalğıc mütəxəssisinin, dalğıc matroslarının və Dalğıc Xidmətinin müvafiq mütəxəssisinin iştirakı ilə keçirilib.

"Xilas edən matros" vakansiyası üzrə peşə sınaq imtahanına müraciət edən hər bir namizəd müvafiq təlimatlara uyğun praktiki olaraq müvafiq komissiyanın iştirakı ilə aşağıdakı praktiki normativlərin icrasına cəlb olunublar: su üzərində 200 metr məsafəni sərbəst üsulla üzmək (3-5 dəqiqə ərzində); su üzərində sərbəst üsulla qalmaq (3-5 dəqiqə ərzində); su altında sərbəst üsulla üzmək (20-30 metr); dərinlikdə olan manikeni su üzərinə qaldırmaq (4 metr); su üzərində manikenin nəqli (25-35 metr).

# "Argus Xəzər-Qara dəniz nəqliyyat dəhlizi 2018" V Beynəlxalq Konfransı keçiriləcək




***Sentyabrın 12-13-də Tbilisidə "Argus Xəzər-Qara dəniz nəqliyyat dəhlizi 2018" V Beynəlxalq Konfransı keçiriləcək.***

"Argus" şirkəti xəbər verir ki, neft və nəqliyyat-logistika şirkətlərinin, neft emalı zavodlarının, terminalların nümayəndələrini, habelə müxtəlif ölkələrdən yanacaq istehlakçılarını bir araya gətirən ənənəvi məkana çevrilən konfrans iştirakçılara ən aktual məsələləri müzakirə etmək və Xəzər-Qara dəniz regionu bazarına dair unikal informasiya əldə etmək imkanı verir.

Konfransın əsas mövzuları bunlardır: Xəzər-Qara dəniz regionunda yükdaşımaların dinamikası – yeni meyillər və imkanlar, Azərbaycan-Gürcüstan nəqliyyat dəhlizi – tranzit yükdaşımaları və inkişaf potensialı, neft və neft məhsullarının daşınması perspektivləri, strateji nəqliyyat dəhlizləri – Bakı-Tbilisi-Qars dəmir yolu, Şimal-Cənub, Çin-Avropa nəqliyyat marşrutları, tarif siyasətlərinin çevikliyi və Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu ilə Çindən və Mərkəzi Asiyadan Şərqi Avropa ölkələrinə konteyner daşımalarının əhəmiyyətinin artması, Xəzər-Qara dəniz regionunda mineral gübrələrin tədarükü potensialı – Azərbaycanın və Gürcüstanın infrastruktur obyektlərinin icmalı.

Beynəlxalq konfransda iri neft, nəqliyyat-logistika şirkətlərinin, neft emalı zavodlarının, terminalların, gəmiçilik şirkətlərinin, treyderlərin, habelə Rusiya, Gürcüstan, Azərbaycan, Qazaxıstan, Bolqarıstan, Rumıniya, Türkiyə, İran, Özbəkistan, Şərqi və Qərbi Avropa ölkələrinin dövlət orqanlarının və əlaqədar nazirliklərinin nümayəndələri iştirak edəcəklər.

# Bab-əl-Məndəb boğazından neft transferi müvəqqəti dayandırılıb



***Səudiyyə Ərəbistanı Bab-əl-Məndəb boğazından neft transferini müvəqqəti dayandırıb.***

Səudiyyə Ərəbistanına məxsus 2 neft tankerinin Qırmızı dənizdə Ənsarullah (Husilər) silahlı qruplaşmasının hücumuna məruz qalmasından sonra Bab-əl-Məndəb boğazından xam neft transferi müvəqqəti olaraq dayandırılıb.

Səudiyyə Ərəbistanının energetika, sənaye və mineral resurslar naziri Xalid bin Əbdüləziz əl-Faleh SPA xəbər agentliyinə müsahibəsində deyib: "Bab-əl-Məndəb boğazından xam neft transferi buranın təhlükəsizliyi təmin olunana qədər müvəqqəti dayandırılıb. Ənsarullah silahlı qruplaşmasının xam neft tankerlərinə istiqamətlənən hücumları Qırmızı dəniz və Bab-əl-Məndəb boğazında beynəlxalq ticarət və dəniz nəqliyyatına təsir edir".

Ölkənin milli neft şirkəti "Saudi Aramco" da Bab-əl-Məndəb boğazından təhlükəsizliyi təmin olunanadək neft nəqlinin müvəqqəti dayandırıldığını təsdiqləyib. "Aramco" bu qərarı neft gəmiləri və heyətin təhlükəsizliyinin təmin edilməsi, eləcə də ola biləcək neft sızıntılarının qarşısının alınması üçün qəbul etdiyini bildirib.

SPA-nın xəbərinə görə, hücuma məruz qalan gəmilərdən birinə az ziyan dəyib, dənizə neft sızıntısı olmayıb və həmin gəmi ən yaxın zamanda Səudiyyə Ərəbistanı limanına gətiriləcək.

# Buxarest Xəzər-Qara dəniz dəhlizi layihəsinin Aİ-nin müvafiq strukturlarında baxılması üçün səylər göstərmək niyyətindədir




***Buxarest 2019-cu ilin birinci yarısında Avropa İttifaqında (Aİ) sədrliyi çərçivəsində Xəzər-Qara dəniz dəhlizi layihəsinin Aİ-nin müvafiq strukturlarında baxılması üçün səylər göstərmək niyyətindədir.***

"NEBIT-QAZ" xəbər verir ki, bunu Rumıniya Xarici İşlər Nazirliyinin dövlət katibi Mariya Maqdalena Qriqore nəqliyyat məsələləri üzrə Türkmənistan-Rumıniya işçi qrupunun iclasında bildirib. O qeyd edib ki, Rumıniya özünün Qara dəniz limanı Konstansanı Xəzər və Qara dənizləri birləşdirən nəqliyyat-tranzit dəhlizinin əsas halqalarından birinə çevirmək üçün bütün imkanlardan istifadə etməlidir.

Bu ideyanı həyata keçirmək üçün Buxarest 2019-cu ilin birinci yarısında Avropa İttifaqında sədrliyi çərçivəsində Xəzər-Qara dəniz dəhlizi layihəsinin Aİ-nin müvafiq strukturlarında müzakirəsi üçün səylər göstərmək niyyətindədir. Tərəflər görüşün yekunlarına dair dəniz, avtomobil, hava və dəmir yolu nəqliyyatı sahələrində əməkdaşlıq üzrə Protokol imzalayıblar.

Sənəddə gələcəkdə Xəzər-Qara dəniz nəqliyyat-tranzit dəhlizinin yaradılması haqqında siyasi bəyannamənin imzalanması istiqamətində siyasi-diplomatik səylərin gücləndirilməsi ilə bağlı qətiyyətlilik də öz əksinin tapıb. Bununla əlaqədar yaxın vaxtlarda Azərbaycan və Gürcüstanın da iştirakı ilə dördtərəfli danışıqların keçirilməsi planlaşdırılır.

# "Ports&Harbors" jurnalı: "Azərbaycanın uğurunun səbəbi ölkənin inkişaf missiyası və ideya ətrafında olan milli həmrəylikdir"

***Böyük Britaniyada dərc olunan və dəniz nəqliyyatı sahəsində dünyanın ən tanınmış nəşrlərdən biri sayılan "Ports&Harbors" jurnalının iyul-avqust buraxılışında cari il mayın 8-11-də Avrasiya məkanında ilk dəfə Bakıda keçirilən Beynəlxalq Limanlar Assosiasiyasının (IAPH) Dünya Limanları Konfransına xüsusi diqqət ayrılıb. Adı çəkilən konfransda iştirak edən jurnal redaktoru Penni Tomas IAPH-in idarə heyətinin siyasət və strategiya üzrə rəhbəri Patrik Verxoven və bestseller yazıçı, beynəlxalq əlaqələr mütəxəssisi Paraq Xannanın Şərqlə Qərbi əlaqələndirmək və mərkəz yaratmaq istiqamətində Bakı Limanının planları, o cümlədən IAPH Bakı 2018 konfransı haqqında fikirlərini öyrənib.***

AZƏRTAC "Ports&Harbors" jurnalının redaktoru Penni Tomasın məqaləsini nəzərinizə çatdırır:

"Bakıda may ayında Beynəlxalq Limanlar Assosiasiyasının Bakı 2018 Dünya Limanlar Konfransı çərçivəsində əsas müzakirə mövzusu olan və Çinin reallaşdırdığı "Bir Kəmər - Bir Yol" təşəbbüsündə Bakının rolu göstərildi. Konfransda iştirak edən 65 ölkədən 400-dən çox nümayəndə Bakı Limanının inkişaf edən Avrasiya logistik zəncirində öz yerini gücləndirmək planları ilə yaxından tanış oldu.




IAPH-in prezidenti Santiaqo Qarsia-Mila, bu konfransın Avrasiya məkanında ilk dəfə məhz Bakıda keçirilməsinin əhəmiyyətini vurğuladı. "Biz əvvəllər Sinqapur və Dubay kimi yerlərdə gördüyümüz inkişafa hal-hazırda dünyanın bu hissəsində şahid oluruq. Burada əsas fərq ondan ibarətdir ki, Bakı təkcə ticarət limanı deyil, Şərqlə Qərb, eləcə də, Şimalla Cənub arasında qovşaq kimi sürətlə inkişaf edən, okeana birbaşa çıxışı olmayan bir mərkəzdir. Fakt odur ki, Dubay limanları və Hyperloop kimi qlobal oyunçuların buraya sərmayə yatırması beynəlxalq limanların ümumi mənzərəsinə əsaslı surətdə təsir edəcək faktorların olduğunu göstərir".

Həm Paraq Xanna, həm də Patrik Verxoven Bakıda təqdirəlayiq bir prosesin baş verdiyi barədə həmfikirdirlər. "Mən buraya 15 ildir ki, gəlirəm və Bakının bu işin öhdəsindən necə yüksək səviyyədə gəlməsi məni heyrətləndirir", - deyə Xanna bildirib. "Görülən işlər siyahısı əslində Dubay modelini təkrarlamaqdan daha çox məsələləri ehtiva edir. Bu hər şeydən öncə əlverişli daşınmaz əmlak imkanı və təhsil sisteminin inkişaf etdirilməsinə yönəlmiş sərmayədir".

Patrik Verxoven də bununla razılaşır. O qeyd edib ki, dünyanın ən inkişaf etmiş ölkələrindən fərqli olaraq, Bakı azad iqtisadi zonası ətrafında tamamilə yeni qonşuluq mühiti qurur və tədarük zəncirində olduğu kimi, ticarətdə rəqəmsal yeniliklərdən istifadə edir. Bu təkcə hər hansı bir binanın yaxud avadanlığın tikintisi ilə məhdudlaşmayan, şirkətlərin özlərini təsis etməsi üçün işgüzar mühitin formalaşdırıldığı hərtərəfli bir sistemdir. Bu, tam olaraq Dubay və bir qədər əvvəl Sinqapurun da qəbul etdiyi modeldir.

Verxoven Bakının gələcəyinin və qətiyyətinin kifayət qədər qiymətləndirilmədiyini və neftə əsaslanan iqtisadi asılılıqdan uzaqlaşdığı üçün şəhərə yatırılan sərmayə və planlaşdırma səviyyəsinə təəccübləndiyini qeyd edir.

Xanna isə fikrini belə tamamladı ki, həm Azərbaycan, həm də Dubay bir ölkədə müvəffəqiyyət qazanmaq üçün istədiyimiz ən vacib şeylərə sahibdir: "Bu, uğurlu gələcək və ümumi missiya ətrafında olan milli həmrəylikdir" .

Konfransda adıçəkilən şəxslərlə yanaşı dünyanın hər nöqtəsindən tanınmış spiker və mütəxəssislər də iştirak ediblər. Dubay limanının sədri və icraçı direktoru Sultan Əhməd bin Sulayem, IAPH Bakı 2018-in açılış mərasiminin keçirildiyi Zaha Hadidin memarı olduğu möhtəşəm Heydər Əliyev Mərkəzində bunları dedi: "Liman mərkəzli konsepsiya üçün ən uğurlu model - liman, azad zona və alt zonaları özündə birləşdirən sistemdir".

Konfransın spikerləri arasında İtaliyanın Triest limanının prezidenti Zeno D'Aqostino, Antverp Universiteti və Şanxay Universitetinin professoru Teo Nottebum, Dubay Logistika Şəhərinin sabiq icraçı direktoru Maykl Proffitt, Quanco Limanının baş direktorunun müavini Yuan Yu, Panama Dəniz Təşkilatında limanlar və dəniz sənayesi üzrə baş direktor Quimara Tunon Querra da var idi.

Xatırladaq ki, mayın 8-11-də Bakıda "Gələcəyin limanları: mərkəzlərin yaradılması, bağlılığın sürətləndirilməsi" mövzusunda Beynəlxalq Limanlar Assosiasiyasının konfransı keçirilib. "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən ev sahibliyi edilən bu konfrans Beynəlxalq Limanlar Assosiasiyası tarixində ən müvəffəqiyyətli və ən çox iştirakçı sayı ilə seçilən konfrans olmuşdu.

# “Dəniz kuboku - 2018” müsabiqəsinin iştirakçıları paytaxtımızın görməli yerlərində olublar





***“Dəniz kuboku - 2018” müsabiqəsində iştirak edən dövlətlərin nümayəndələri üçün mədəni proqram təşkil olunub.***

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, Azərbaycana müxtəlif ölkələrdən gələn hərbi dənizçilər proqram çərçivəsində Bakının görməli yerlərində olub, tarixi abidələri ziyarət ediblər.

Paytaxtımızın gözəlliyi, müasir tikililər və aparılan quruculuq işləri qonaqlarda xoş təəssüratlar oyadıb.

# “Xəzərin sahilində-2018” festivalı keçirilir

***Azərbaycan Respublikasının Gənclər Fondu və “Cavan” Gənclər Hərəkatı İctimai Birliyinin təşkilatçılığı ilə Dənizkənarı Milli Parkda, Ağ Şəhər Bulvarında “Xəzərin sahilində–2018” festivalının növbəti həftəsi keçirilib.***





Axşam saatlarında davam edən festivalın musiqili hissəsində “Ahmedowsky Trio” qrupu şən və maraqlı ifası ilə iştirakçılara əyləncəli axşam bəxş edib.

Paytaxtın sakinləri və qonaqlar, xüsusilə gənclər iyulun 14-dən sentyabrın 1-dək hər həftənin şənbə günləri saat 20:00–dan 23:00-dək Ağ Şəhər Bulvarında festivala qoşulub isti yay günlərində iş həftəsinin yorğunluğunu ata bilərlər.

Festival ərazisində iştirakçılara piknik etməyə, müxtəlif oyunlar və yarışlar keçirmələrinə şərait yaradılır.

Festivala giriş ödənişsizdir.







# Mütəxəssislər Hind okeanına düşdüyü güman edilən təyyarənin itməsi səbəblərini aydınlaşdıra bilməyiblər

***Mütəxəssislər “Malaysia Airlines” şirkətinə məxsus, 2014-cü ilin martında MH370 reysi ilə uçan sərnişin təyyarəsinin itməsi səbəblərini aydınlaşdıra bilməyiblər.***

Malayziya hökuməti iyulun 30-da itən təyyarə ilə bağlı hesabatı ictimaiyyətə təqdim edib.

Xatırladaq ki, göyərtəsində 239 nəfərin olduğu təyyarə Cənub-Çin dənizi üzərində olarkən radarlardan itib. Təyyarə Kuala Lumpur-Pekin reysini həyata keçirirmiş. Təyyarənin Hind okeanına düşdüyü güman edilir.

Hesabatda təyyarənin uçuş istiqamətini dəyişərkən əl ilə idarəetmə rejimində olduğu qeyd edilir.

Eyni zamanda, komissiya üzvlərinin qənaətinə görə, təyyarənin idarə olunmasında üçüncü tərəfin qeyri-qanuni iştirakını da rədd etmək mümkün deyil.

Dörd il bundan əvvəl baş verən və artıq axtarış əməliyyatlarının dayandırıldığı tapmacanın cavabını tapmaq zaman keçdikcə daha da çətinləşir.

***Vüqar Ağayev***

# Əsrarəngiz göllərimiz

***Göllər yerləşdiyi məkandan asılı olmayaraq, suya yaxın yerlərdə istirahətdən zövq almaq istəyənləri həmişə cəlb edir. Azərbaycanda 450-dək müxtəlif mənşəli böyük və kiçik göl var. Onların bir çoxu turizm məkanlardan uzaq, yaxud mühafizə olunan ərazilərdə yerləşdiyi üçün çox az sayda göl istirahət edənlər üçün əlçatandır. Odur ki, icmalımıza mənzərəli yerlər olan süni gölləri də daxil etmişik.***



















## Sarısu və Ağ göl

Sarısu Azərbaycanın ən böyük göludür (Xəzər dənizi istisna olmaqla). Sahəsi təxminən 65,7 kvadratkilometr, uzunluğu 22 kilometr və eni 3 kilometr olan bu təbii su hövzəsi İmişli və Sabirabad rayonlarının ərazisində yerləşir. Gölün yerləşdiyi ərazi turizm məkanı olmasa da, canlı təbiət həvəskarları üçün böyük maraq kəsb edir. Əsasən bataqlıq olan Sarısu gölünün sahilboyu xətti qış mövsümündə 350 min köçəri quşun məskəni olur. Bu yerlərdə quş uçuşu məsafəsindən quşları müşahidə etmək istəyənlər üçün geniş imkanlar var. Bundan başqa, göl balıqçılıq üçün çox əlverişlidir və bu məqsədlə də istifadə edilir.

Sarısu gölü şirin suludur və daha bir gözəl təbii su hövzəsindən - Ağ göldən gələn su axını ilə də dolur. Ərazisi 2,8 min hektar olan bu göl Ağ göl Milli Parkının ərazisində yerləşir. Buradakı su-bataqlıq ərazisi əsasən su quşlarının məskəni kimi “Ramsar Konvensiyası”na daxil edilib.

## Göygöl, Maralgöl və digər dağ inciləri

Dağ gölü olan Göygöl Azərbaycanın ən gözəl və ecazkar təbii su hövzəsidir. Göygöl Gəncə şəhərindən 25 kilometr cənubda eyniadlı rayonda, Murovdağın şimal ətəklərində dəniz səviyyəsindən 1500 metrdən çox yüksəklikdə yerləşir. Bu göl 1139-cu il sentyabrın 30-da Gəncə şəhəri yaxınlığında baş vermiş dağıdıcı zəlzələdən sonra Kəpəz dağının dağılan zirvəsinin Ağsu çayının qarşısını kəsməsi nəticəsində yaranıb. Yaranan şəffaf sulu hövzə Göygöl adlandırılıb. Ümumi sahəsi 0,79 kvadratkilometr olan gölün uzunluğu 2,5 kilometr, ən geniş yerdə eni isə 0,6 kilometrdir. Göygöl 6460 metr sahilboyu əraziyə malikdir, orta dərinliyi 30 metr, maksimal dərinliyi isə 93 metrdir.

Buranın nadir təbiətini, flora və faunasını qorumaq üçün 1965-ci ildə Göygöl Dövlət Təbiət Qoruğu yenidən təşkil edilib. Göygölün şimal sahili və onun ətrafı populyar istirahət zonasıdır. Bu yerlərin havasının tənəffüs yolları və əsəb sistemi xəstəliklərindən əziyyət çəkənlər üçün müalicəvi əhəmiyyəti olduğu hesab edilir. Gölün ətrafında yay mövsümündə turistlərin sevimli məkanı olan, müxtəlif turist bazaları, istirahət evləri, pansionatların olduğu Hacıkənd kurort zonası yerləşir. Bir neçə turist marşrutu da bu yerlərdən keçir.

Hacıkənd istirahət zonası kiçik Qafqazın şimal-şərq yamacında, Murovdağ silsiləsinin Kürəkçay hövzəsində yerləşir. Bu zona şərqdən Goran çay, cənubdan Murovdağ silsiləsi, qərbdən Gəncəçayla həmsərhəddir. Hacıkənd ərazisi Gəncə şəhərinin və Göygöl rayonunun inzibati idarəçiliyinə daxildir. Hacıkənd kurort zonasında məşhur Turşsu müalicə kompleksi də yerləşir. Buradakı təbii mineral bulaqlar dəniz səviyyəsindən 1450 metr yüksəklikdədir. Göygöllə yanaşı, Hacıkənd kurort məkanında daha bir neçə mənzərəli dağ gölü - Maralgöl, Quş göl, Qaragöl, Ağ göl, Şamlı göl və digər su hövzələri yerləşir. Onların əksəriyyəti Göygöllə eyni vaxtda - 1139-cu il zəlzələsi nəticəsində yaranıb.

Yeri gəlmişkən, Göygöl rayonunun inzibati mərkəzi - Göygöl şəhərindən Hacıkəndə aparan yolun kənarındakı təpədə Qafqaz Albaniyasının yadigarı olan qədim məbədi də görmək olar. Bundan başqa, yolboyu ənənəvi Azərbaycan çörəyinin bişirildiyi çoxsaylı təndirlər də var. Hər kəs özü ilə ətirli, təndirdən təzə çıxmış və qızarmış, xırçıldayan qabığı olan çörək aparmaq istəyir.

## Batabat

Batabat Azərbaycanın dağ gölləri kolleksiyasının daha bir incisidir. Əsrarəngiz gözəlliyi olan bu mavi göl Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda, dəniz səviyyəsindən təxminən 2500 metr yüksəklikdə, Naxçıvan çayının mənbəyində yerləşir. Mənzərəli su hövzəsi baharda və yayda yaşıllığa və gül-çiçəyə bürünür. Gölün çox təmiz suyu var və onun güzgü kimi saf səthində torf adası üzür. Bu yerlərin subtropik – qışda yumşaq qarlı və yayda sərin quru iqlimi var. Gölün ətrafındakı kurort zonası çoxsaylı mineral bulaqlarla zəngindir.

Batabat gölünün yaxınlığında astrofizika rəsədxanası və Qanlı göl də yerləşir.

## Nohur gölü

Süni su hövzəsi olan Nohur gölü Qəbələdə meşələrlə əhatə olunmuş sevimli istirahət zonasıdır. Bu göl büllur kimi təmiz suyu və möhtəşəm mənzərəsi ilə məşhurdur. Nohur gölünün ətrafında yaxşı inkişaf etmiş turizm infrastrukturu var. Burada qayıq və katamaran icarəyə götürmək yaxud, təlimatçının müşayiətilə at belində sahilboyu gəzmək olar.

Yaxınlıqda milli mətbəxin ləziz təamlarını təklif edən çoxlu kafe və restoranlar fəaliyyət göstərir. Gecələmək istəyənlər üçün isə kiçik qonaq evləri var. Gölün yaxınlığında dünyaca məşhur “Chenot Palace Health Wellness Hotel” şəbəkəsinə daxil olan mehmanxana da qonaqların xidmətindədir.

Qəbələdən ayrılarkən rayonun bütün yerlərində qurulmuş piştaxtalarda satılan yerli konserv və mürəbbələr almağı da unutmayın.







## Mingəçevir su anbarı

Azərbaycanın ən böyük süni su hövzəsi ölçülərinə görə tez-tez Mingəçevir dənizi də adlanır. Onun yaranmasının əsas “səbəbkarı” Mingəçevir şəhərinin rəmzi olan və Azərbaycanın Kür çayı üzərində inşa edilmiş ən böyük hidroelektrik stansiyasıdır (HES).

Keçmiş zamanlarda ram edilməyən Kür çayı Bozdağın şərq ətəyindən Kür-Araz vadisinə axardı. 1945-ci ilin iyulunda inşasına qərar verilmiş hidroelektrik stansiyası bu “dəli” çayı ram etdi. Mingəçevir HES 9 il müddətində tikildi və 1954-cü ildə istifadəyə verildi. Mingəçevir hidroqovşağının suaşıran bəndi dünyada ən böyük bəndlərdən hesab edilir. Onun hündürlüyü 81 metr, uzunluğu 1550 metr, həcmi isə 15,6 milyon kubmetrdir.

Mingəçevir HES-in bəndi Kür çayının təbii axını qarşısında maneə oldu və bunun sayəsində ətrafdakı bir çox kilometr quru sahə suyun altında qaldı. Bir neçə kəndin əhalisi də subasma nəticəsində əvvəlcədən başqa yerlərə köçürüldü. Sahəsi 605 kvadratkilometr olan və şəhərdən 3 kilometr şimal-qərbdə yerləşən Mingəçevir su anbarı məhz belə yarandı. Onun uzunluğu 70 kilometr, eni 18 kilometr, orta dərinliyi 27 metr, maksimal dərinliyi isə 83 metrdir.

Su anbarının ehtiyatlarının energetika və kənd təsərrüfatında istifadə olunması ilə yanaşı, Mingəçevir dənizi yerli sakinlərin və turistlərin sevimli istirahət məkanına da çevrilib. Sovet dövründə burada fəaliyyət göstərən ittifaq əhəmiyyətli pansionat-sanatoriyaya bütün ölkədən minlərlə turist gəlirdi.

Bu gün də su anbarının sol sahilboyu ərazisində yerləşən təxminən 10 çimərlikdə istirahət edənlərin sayı çoxdur. Mingəçevirdə çimərlik mövsümü mayda başlayır və sentyabrın sonunadək davam edir. Suyun orta hərarəti isə 23-30 dərəcə olur.

Buraya istirahət üçün gələnlər ictimai şəhər çimərliyinə üz tuturlar. Çimərlikdə Fövqəladə Hallar Nazirliyinin xilasetmə xidməti daimi nəzarət aparır, habelə yaxşı istirahət infrastrukturu var. 2013-cü ildə şəhər icra hakimiyyəti sahilin əsaslı rekonstruksiyasını həyata keçirib: yumşaq qum gətirilib, taxtlar qurulub, duş kabinələri və soyunub-geyinmə yerləri təzələnib. Çimərlikdə kafe, voleybol meydançası, həmçinin motorlu qayıq və katamaranların kirayə xidməti fəaliyyət göstərir. Arzu edənlər təcrübəli təlimatçının müşayiətilə skuterlərdən də istifadə edə bilər.

Suda quraşdırılmış gözəl estakada da diqqəti cəlb edir. Oradan ətraf əraziləri və göl səthini seyr etmək olar. Sahilboyu dayaz yerlərdə su firuzəyi rəngə çalır və su anbarının ortasına doğru tündləşərək mavi rəngə boyanır. Bu baxımdan buxtanın ümumi mənzərəsi fransız Rivyerasını, hətta tropik çimərlikləri xatırladır. Oxşarlığın tamlığı üçün bircə seyrək kokos palmaları çatışmır.

Canlı aləm sarıdan buxta zəngindir. Daşlar üzərində oturmuş qarabatdaq dəstələri, su üzərində pərvaz edən qağayı qatarları, haradasa uzaqda balıq üçün suya baş vuran ördəklər estakadadan aydın görünür. Onu da demək yerinə düşər ki, Kürdə balıq sarıdan bolluqdur. Burada daha çox çapaq, suf, çəkibalığı, şamayı, dabanbalığı, naqqa, durnabalığı və s. balıq növlərinə rast gəlinir. Tilovunu götürən balıqçılar bol balıq tuta bilərlər.

## Şəmkir su anbarı

Hidroelektrik stansiyası sayəsində populyar turizm mərkəzinin yaranmasının daha bir nümunə Şəmkir rayonunda yerləşən su anbarıdır.

Respublikanın Qərb bölgəsinin enerji təchizatı üçün nəzərdə tutulan Şəmkir HES-in tərkibinə eyniadlı HES və Yenikənd HES daxildir. Bu hidroelektrik stansiyasının ilk aqreqatı 1982-ci ildə istifadəyə verilib, Yenikənd HES isə 2000-ci ildə istismara buraxılıb. Birinci hidroelektrik stansiyasının tikintisi zamanı burada salınan Kür fəhlə qəsəbəsi hazırda 10 min əhalisi olan yaşayış məntəqəsidir.

Əvvəllər olduğu kimi, Kür çayında bəndin tikintisi nəticəsində yaranmış süni su anbarı da Şəmkir sakinləri və qonaqlarının sevimli istirahət məkanına çevrilib. Bu mənzərəli su hövzəsinin ətrafında həyat qaynayır. Su anbarının yaxınlığında qonaqlara xidmət göstərən çoxlu kafe və restoranların terrasından su anbarının gözəl mənzərəsi, hətta su hövzəsinin qarşı tərəfində yerləşən HES-in bəndləri görünür. Narıncı qum təpəciklərinin fonunda onların Misirdəki Fironlar Vadisini xatırladan görünüşü insanı valeh edir.

***Emil Eyyubov***

# "Fateh" gəmisi ilin sonunadək Aralıq dənizində ilk neft və qaz quyusu qazacaq



***Türkiyənin "Fateh" kəşfiyyat-axtarış qazma gəmisi ilin sonunadək Aralıq dənizində ilk neft və qaz quyusu qazacaq.***

Bu barədə enerji və təbii sərvətlər naziri Fatih Dönməz məlumat verib. Nazir, həmçinin ölkəsinin enerji istehsalı və mədənçilik siyasəti ilə bağlı istiqamətlər barədə məlumat verib.

Qeyd edək ki, Türkiyənin istehsal etdiyi "Fateh" kəşfiyyat-axtarış qazma gəmisi cari ilin mayında istifadəyə verilib.

# "Botaş" üzən LNG terminalı sifariş verib

***Türkiyənin "Boru Hatları ile Petrol Taşıma AŞ" ("Botaş") şirkəti üzən mayeləşdirilmiş təbii qaz (LNG) terminalı sifariş verib.***



Türkiyə KİV-ləri xəbər verir ki, "Botaş" Koreya Respublikasının "Hyundai" şirkətindən üzən LNG saxlama və qazlaşdırma terminalı sifariş edib. "FSRU" gəmisi kimi tanınan terminaldan gündəlik 28-30 milyon kubmetr qaz sisteminə verilə bilir. Tankerin dəyəri 250 milyon dollar təşkil edir. O, 2020-ci ildə təhvil veriləcək və Adananın Ceyhan bölgəsində lövbər salacaq.

Qeyd edək ki, "Botaş" şirkəti Azərbaycan təbii qazını Türkiyəyə daşıyan Trans-Anadolu qaz boru kəməri (TANAP) layihəsində 30 faiz iştirak payına sahibdir.

TANAP layihəsi üzrə Faza-0, yəni Türkiyəyə ilk kommersiya qazının tədarükünə iyunun 30-dan başlanılıb. İlkin mərhələdə TANAP-la Türkiyəyə ildə 2 milyard kubmetr qaz nəql olunacaq. Daha sonrakı üç il ərzində bu həcm 6 milyard kubmetrə çatdırılacaq. TANAP-ın inşası üzrə ümumi işlərin 94,8 faizi icra olunub. Layihə üzrə kapital xərcləri 8 milyard dollardır. İndiyədək 5,5 milyard dollar xərclənib.

Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından çıxarılan qazı Türkiyəyə və Avropaya nəql edəcək TANAP Türkiyə-Gürcüstan sərhədində Cənubi Qafqaz Boru Kəmərinə, Türkiyə-Yunanıstan sərhədində isə "Trans-Adriatik" (TAP) qaz boru kəmərinə birləşəcək. TANAP-ın Gürcüstan-Türkiyə sərhədi-Əskişəhər 56 düym diametrli hissəsinin uzunluğu 1350 kilometr, Əskişəhər-Türkiyə-Yunanıstan sərhədi boyunca 48 düym diametrli hissəsinin uzunluğu isə 480 kilometrdir. Kəmərin ilkin ötürücülük qabiliyyəti 16 milyard kubmetrdir və sonradan bu həcmin 31 milyard kubmetrədək artırılması nəzərdə tutulur.

# YARIZARAFAT, YARIGERÇƏK

**Üstün cəhətləri olmayanlar adətən onu uydurmağa çalışırlar.**

**Onsuz da basıb üstümüzdən keçəcəkləri üçün yaltaqlara yol veririk?**

**Həmişə fikirləşmişəm ki, qanunları yalnız mənimçün yaradıblar və onları pozmamalıyam. Belə yaşamaq daha rahatdır.**

**Mənə nəvəsini sevməyən bir baba göstərin. Sevə bilən adam itirilmiş adam deyil. Deməli, ən pis adamlarda da yaxşı nə isə var.**

**Həyat tamaşadır və bu tamaşada hər kəs özünü olduğundan qat-qat yaxşı göstərməyə çalışır.**

**Mənə özünü təmizə çıxarmaq üçün heç nə demə. Bu imkandan adətən inanmadıqlarım istifadə edirlər.**

**Mən paxıl deyiləm. Lakin mən təriflənənlərin cılız olduqlarını görməyəcək qədər kor da deyiləm.**

**İmkanın olsa, kiməsə kömək elə. Əla şeydir.**

**İstəyirsiniz lap and içim ki, yaxşılıq şeytan əməli deyil.**

**Mən tənqidi xoşlamıram. Xüsusən, təpədən-dırnağacan zibilin içində olanların tənqidini.**

**Bizə pislik edənlərin hamısı sonra bizdən ədalət gözləyir. Görəsən niyə?**

**Bəh-bəhlə pambıq əkirik, sonra da təəccüblənirik ki, pambıqla baş kəsənlər niyə çoxalıb?**

**Pis adamlardan uzaq olmaq üçün mən konkret olaraq harda durmalıyam?**

**Hər şeyin yaxşısı olur? Yaxşı yaltaq eşitmisiniz? Bütün yaltaqları qovun getsin.**

**Həyat məsələləri ilə müqayisədə riyazi məsələləri ona görə həll etmək olur ki, həmin məsələlər barədə ən azı fikirləşirik.**

**Adam var, içində səhv etmək qorxusu ilə, adam var səhvlərin içində yaşayır.**

**Bəzilərinə verilən maaşa neçə qoyun saxlamaq olar. Qoyunun faydası daha çoxdur.**

**Orta və ali məktəbləri birtəhər bitirənlər tanıyıram ki, birtəhər "alim" olandan sonra mənə də birtəhər baxırlar.**

**Namizədlik dissertasiyalarının adlarını bilməyənlərə bilmədikləri hər xırda şeylərə görə irad tutmaq yaxşı deyil.**

**Sözünün yiyəsi olmayanın birinə dedim ki, başına ləçək bağlasın, əməlli-başlı incidi. Başıbağlılıq belə pisdi ki?**

**Daha bəzilərini layiq olmadığı ucalıqda görəndə soruşmuram ki, onun orda nə işi var? Onsuz da aşağıda da əlindən bir iş gəlmirdi.**

**O yerdə ki, adamlar yerində deyil, o yerdə heç nə yerində olmur.**

**Gəncləri bədbəxt etmək üçün hər maviyə bir "mavi ekran"dansa, hər telekanala bir mavi də bəs edər.**

**Bütün problemlərim ondan doğursa, həqiqəti niyə sevməliyəm?**

**Əksəriyyəti yaradıcılıqla məşğuldur. Yalan danışmaq da yaradıcılıq məharəti tələb edir.**

**Yetər ki, düz olsun. Yolun uzunluğu sizi qorxutmasın.**

**Məni özlərindən bir az baha satanlar düşünürlər ki, sərfəli alış-veriş ediblər. Özlərinin qara qəpiyə dəymədiyini nəzərə alsaq, onları qınamağa dəyməz.**

**Vəzifədən, puldan dördəlli yapışanları heç vaxt başa düşmədiyim üçün nə fərli vəzifəm, nə babat pulum oldu?**

**Kimi quş yuxusunda, kimi qış yuxusunda.**

**Çox səliqəli adamdır. Hələ indiyədək kimsə onun işdə əlini ağdan-qaraya vurduğunu görməyib.**

**Yüngül adam üçün özünü ələ almaq o qədər də çətin olmasın gərək.**

**Deyirlər daha heç yerdə yalan keçməyəcək. Təki yalan olmasın.**

**Tam xoşbəxtliyim üçün bircə şey kifayətdir:yalan ayaq tutmasın, ayaq tutanda da yeriməsin, yeriyəndə də həqiqəti arxada qoya bilməsin. Deyəsən çox oldu axı?!**

**Yazılarında bir sağlam cümlə tapa bilməsəm də, yaza bilməyənlərin jurnalistika ilə məşğul olmalarına etiraz etmirəm. Üstəlik, şükür edirəm ki, onlar məsələn, həkimliklə məşğul olmurlar.**

**Bəziləri özlərini elə aparırlar, sanki baxmağa çox şey olduğu üçün gözlərimin içinə baxa bilmirlər.**

***Rasif TAHİROV***

# Qırmızı dənizdə təbii qaz axtaracaqlar



***Sudan Qırmızı dənizdə mövcudluğuna inanılan təbii qaz ehtiyatlarının kəşfiyyatı üçün Rusiya şirkəti ilə razılığa gəlib.***

Sudan hökuməti həmin təbii qaz ehtiyatlarının aşkarlanması üçün Rusiyanın "Ross Geology" şirkəti ilə müqavilə imzalayıb.

Sudanın neft və qaz naziri Azhari Abdul-Gadir Abdallah və Rusiyanın təbii sərvətlər və ətraf mühit naziri Dmitry Kobylkinin rəhbərlik etdiyi nümayəndə heyətləri paytaxt Xartumda görüşüb. İmzalanan müqaviləyə görə, "Ross Geology" Sudanla razılaşdıraraq Qırmızı dənizdə təbii qazın kəşfiyyatını aparacaq. Axtarış işlərinə nə zaman başlanacağı bildirilməyib.

Sudanlı nazir deyib ki, Qırmızı dəniz ölkənin mərkəzi hesab olunur. Port Sudan şəhərində neft-təbii qaz axtarmaq və karbohidrogenlərin kəşfi üçün lazımi addımlar atılır.

# Plastik kütlənin tərkibindəki nanohissəciklər Dünya okeanına ciddi ziyan vurur

***Beynəlxalq toksikoloqlar qrupu və Uzaq Şərq Federal Universitetinin (Rusiya) alimləri müəyyən ediblər ki, plastik məmulatın və kompozitlərin tərkibinə daxil olan silisiumlu nanohissəciklər mikroskopik yosunların hüceyrələrini zədələyə bilər. Tədqiqatda UŞFU-nun, Rusiya Elmlər Akademiyasının (REA) Sibir bölməsinin Q.K.Boreskov adına Kataliz İnstitutunun, REA-nın Uşaq Şərq bölməsinin Dəniz Biologiyası üzrə Milli Elmi Mərkəzinin və Sakit Okean Coğrafiya İnstitutunun, İnha Universitetinin, Estoniyanın Milli Kimyəvi Fizika və Biofizika İnstitutunun, Estoniya Elmlər Akademiyasının və Krit Universitetinin (Yunanıstan) əməkdaşları iştirak ediblər. RİA Novosti agentliyi xəbər verir ki, birgə tədqiqatın nəticələri "Environmental Research" jurnalında dərc olunub.***

Məqalə müəlliflərindən biri, UŞFU-nun elmi işlər üzrə prorektoru Kirill Qoloxvast qeyd edib ki, dünyadakı plastik kütlənin və kompozit materialların təqribən 80 faizinin son məkanı Dünya okeanıdır. Dəniz mikroyosunlarının toksikoloji tədqiqatı böyük əhəmiyyət daşıyır, çünki onlar geniş yayılıb və okeandakı qida zəncirinin əsasını təşkil edir.

Alimlər eksperiment aparmaq üçün Yapon dənizindəki Böyük Pyotr körfəzindən götürülən birhüceyrəli "Heterosigma akashiwo" dəniz mikroyosunlarından istifadə ediblər. Bu yosunun hüceyrəsinin divarı nazikdir və deməli, kimyəvi çirklənməyə də daha meyillidir. Tədqiqatçılar bu qənaətə gəliblər ki, karbon və silisium nanohissəciklərindən ibarət qatışığın toksik təsiri onların 1 litrdə 100 milliqram kon-



sentrasiyası nəticəsində yaranır. Elə eksperimentin üçüncü günü yosunların hüceyrələrinin kəskin toksik ziyana məruz qaldığı məlum olub, hüceyrələrin xroniki zəhərlənməsi isə yeddinci gün qeydə alınıb.

Alimlərin fikrincə, yosunların hüceyrələri nanohissəciklərlə mexaniki zədələndiyinə görə tələf olub. Nanoborularla müqayisədə karbon nanoliflərinin toksikliyi bir o qədər də yüksək olmayıb, hüceyrələrin davamlı deformasiyasına gətirib çıxarıb.

# Marsda su tapılıb



***Marsda 1,5 kilometr dərinlikdə su tapılıb.***

Bu kəşf Marsda maye halda ən böyük su kütləsidir. Əvvəlki araşdırmalar suyun həmin planetdə mövsümi şəkildə olduğunu göstərirdi. Lakin sonuncu kəşf onu təsdiq edir ki, Marsda daimi su mövcuddur. Su kütləsi buzun altında və təxminən 20 kilometrlik bir ərazidə yerləşir.

İtalyan araşdırmaçılara məxsus olan bu kəşf barədə Romada xüsusi mətbuat konfransı keçirilib və müəlliflərinin elmi məqaləsi ABŞ-ın məşhur "Science" jurnalında çap olunub.

Bu kəşf Marsda həyat ola biləcəyi ehtimalını artırıb.

# Buzlaqların əriməsi dəniz suyunun səviyyəsini təhlükəli dərəcədə artıra bilər



***Keçən il Antarktidadan qopmuş Larsen buzlağının nəhəng parçasının əriməsi dəniz suyunun səviyyəsini bir neçə millimetr artıracaq. Digər buz dağlarının dağılması daha təhlükəli nəticələrə gətirib çıxaracaq.***

Bu barədə "Cryosphere" jurnalında məlumat yer alıb. Klimatoloqlar, okeanoloqlar və digər alimlər uzun müddət hesab ediblər ki, iqlim dəyişikliyi Yer planetinin əsasən şimal hissəsində - Qrenlandiya və Şimal qütbündə buzlaqların əriməsinə səbəb olacaq. Lakin son illər bu təsəvvür dəyişməyə başlayıb. Çünki alimlərin üzə çıxardıqları faktlara görə, əvvəlcə şimaldakı buzlar deyil, Antarktida buzlaqlarının bir hissəsi əriyə bilər ki, bu da dəniz suyunun səviyyəsini təhlükəli dərəcədə artıra bilər.

RİA Novosti agentliyi xəbər verir ki, NASA və ESA-nın son müşahidələrinə görə, ən zəif buzlaq Antarktik yarımadasının şərq sahilindəki Larsendir. 1995-ci ildən əriməyə başlayan buzlağın təqribən Estoniya və ya Moskva vilayətinin ərazisi böyüklüyündə olan qalıqlarından biri keçən ilin iyulunda nəhəng aysberqə çevrilib. Bu aysberq (A-69) bir trilyon ton olduğu üçün Antarktida sahillərində dayanaraq nisbətən isti sulara hərəkət etmir ki, bu da onun əriməsi və dağılması prosesinin qarşısını alır. Birminhem Universitetindən (Böyük Britaniya) Nikolas Barrand qeyd edib ki, bu hadisə alimləri aysberqin dağılmasının və Antarktik yarımadasında digər zəif buzlaqların əriməsinin fəsadları barədə düşünməyə sövq edib. Alimlərin fikrincə, A-68 və Larsen buzlağının digər hissələrinin yoxa çıxması dəniz suyunun səviyyəsini dörd millimetr artıracaq ki, bu da ölçü baxımından çox deyil. Lakin cənuba doğru getdikcə, məsələn, kral VI Georqun adı verilmiş buz massivinin əriməsi daha fəlakətli vəziyyət doğuracaq. Çünki bu, bir neçə kontinental buz axınının qarşısını saxlayır. Nəticədə dəniz suyunun səviyyəsi 2,2 santimetr yüksələcək ki, bu da Hind və Sakit okeanlarında ada dövlətlərinin həyatına mənfi təsir edəcək.

# Bəzi balıqlar akvariumu yuva kimi qoruyur



***Balıq və bitkilərin saxlanılması üçün nəzərdə tutulan büllur qab akvarium sayılır. Bu ənənə çinlilərdən gəlir. Onlar ilk dəfə şüşə qablarda çay və dəniz balıqlarını saxlamağa başlayıblar. Beləliklə, dəniz canlılarının bir parçası akvariumda özünə yeni həyat qazanıb. Çinlilər büllur qabları Yaponiyaya gətirəndən sonra akvariumun dünya səyahəti başlayıb.***

Su bütün canlılar üçün vacib olsa da, balıqlar üçün daha əhəmiyyətlidir. Balıqların yaşadığı, nəfəs aldığı, içdiyi su müəyyən şəraitə uyğun olmayanda onların vəziyyəti pisləşir və ölürlər. Ona görə də suyun kimyəvi tərkibi, oksigen tutumu və təmizliyi mütləq təmin edilməlidir. Bundan başqa akvariumun tərkibində istifadə edilən daşlar və digər bərk elementlər xüsusilə karbonatlı suyun tərkibini dəyişmək qabiliyyətinə malikdir.

Balıq seçimində həlledici amil akvariumun ölçüsüdür və ilk növbədə onların rahat yaşaması üçün şərait yaradılmalıdır. Bəzi balıqlar hansısa ərazini yalnız özününkü hesab edir və digər balıq növlərini ora buraxmır. Ona görə də onların bir-birinə uyğunlaşıb-uyğunlaşmayacağını balıq növlərini akvariuma salmazdan əvvəl nəzərə almaq lazımdır. Bəzi balıqlar akvariuma axan çaylardan, bəziləri isə sakit hövzələrdən düşür. Deməli, onlar eyni şəraitdə yaşaya bilməzlər. Balıqlar yırtıcı olmasa da, təbiətdə adətən böyüklər xırdaları yeyir. Bəzən balıq növləri akvariumun müəyyən hissəsindən istifadə edərək öz ərazisini yuva kimi qoruyur.

# Boş vaxt əməkhaqqı dərəcəsindən daha vacib sayılır

***İşçini məmnun etmək üçün heç də həmişə pul yeganə amil olmayıb. Ailə üçün maddi yardım və boş vaxt çoxluğu da analoji olaraq vacib elementlərdir.***

Bu barədə Macarıstanın "Világgazdaság" gündəlik biznes qəzetində deyilir.

"Qərbi Avropada əməkhaqqı dərəcəsindən daha vacib olanı boş vaxtdır. Fransanın bir çox strukturlarında iş saatı həftədə 35 saatdır, Almaniyada isə bəzi regionlarda həmkarlar ittifaqları ilə daha az iş saatı barədə razılıq əldə edilib", - deyə "Világgazdaság"a müsahibəsində "Mercedes-Benz Manufacturing Hungary Kft"nin kadr heyəti məsələləri üzrə sabiq direktoru Laslo Aç bildirib.

Ailə üçün maddi yardıma gəlincə, Macarıstanda "ağ yaxalıqlı" və ya "göy yaxalıqlı" işçi anlamı deyilən fərqlər mövcuddur.

Birinci halda, bir qayda olaraq, işin elastik qrafikinə, həmçinin evdə işləməyə, bəzi hallarda dördgünlük həftəyə yol verilir. İşəgötürənlər bu şərtləri təklif etməyə məcburdurlar. Çünki yüksəkixtisaslı işçi qüvvəsini işə götürmək getdikcə çətinləşir, dəyərli işçiləri isə qorumaq lazımdır. Əgər əməkdaş üçnövbəli çalışırsa, o zaman elastik qrafikli işi və ya ailə məsələlərini həyata keçirmək çətindir. Lakin bəzi hallarda tibbi müayinələr və şəxsi məsələlər üçün işçilər istirahət günü götürə bilərlər.

Laslo Aç qeyd edib ki, iş yerində kafeteriyanın, uşaq bağçasının olması da əsaslı amillərdir.

***Pərvanə Qarayeva***

# Sualtı daşımalar üçün məsafədən idarə edilən ilk robot təqdim edilib

***Çin Dəmir Yolu Korporasiyası (China Railway Rolling Stock Corporation, CRRC) sualtı daşımaların həyata keçirilməsi üçün məsafədən idarə edilən yeni aparat təqdim edib. Robot kommersiya istifadəsi üçün hazırlanan ilk qurğudur.***




"TASS www.tass.ru" resursu bildirir ki, məsafədən idarə olunan digər sualtı aparatlar kimi, təqdim edilən model tədqiqat-xilasetmə əməliyyatları, texniki baxış işlərinin aparılması, suyun dibindən əşyaların çıxarılması, eləcə də neft-qaz kompleksi işlərinin müşayiət edilməsi məqsədilə istifadə olunacaq.

"CRRC" nümayəndələrinin sözlərinə görə, yeni robot gücə görə mövcud analoqlarını üstələyir: aparata quraşdırılan mühərrikin gücü 250 at gücü təşkil edir ki, bu da "BMW X6" markalı avtomobilin gücünə bərabərdir. Çəkisi 5 ton olan qurğunun yükgötürmə qabiliyyəti 4 ton təşkil edir.

Bildirilir ki, yeni qurğu suyun 3 min metr dərinliyində real vaxt rejimində 1-3 metr görünmə şəraitində işləyə bilir.

Aparata, həmçinin, exolokasiya texnologiyası quraşdırılıb ki, bu da qurğuya suyun altında müxtəlif əşyaların olduğu yeri müəyyənləşdirməyə imkan verir. Qurğunun işinin dəqiqliyi millimetrlərlə ölçülür. Robot suyun dibindən iynə ölçüsündə əşyanı qaldıra bilir.

Sualtı daşımalar üçün məsafədən idarə edilən yeni aparatın kütləvi istehsalı nəzərdə tutulur.




## Azərbaycan idmançısı stolüstü tennis üzrə Avropa çempionu olub

***Rumınıyanın Kluj-Napoka şəhərində keçirilən gənclər arasında stolüstü tennis üzrə Avropa çempionatı başa çatıb.***

44 ölkədən idmançıların iştirak etdikləri çempionatda Azərbaycan millisinin üzvü Ning Jing şəxsi oyunlarda bütün rəqiblərinə qalib gələrək birinci yeri tutub.

Beləliklə, idmançımız ikinci dəfə gənclər arasında Avropa çempionu titulunu qoruyub.

## Bakıda keçiriləcək Avropa Gənclər Yay Olimpiya Festivalının başlanmasına bir il qalıb

***Bakıda keçiriləcək Avropa Gənclər Yay Olimpiya Festivalına geri sayım başlayıb.***

Festivalın açılış mərasimi gələn il iyulun 21-də "Crystal Hall"da baş tutacaq və tədbir 6 gün davam edəcək. Yarışlarda iştirak üçün Bakıya 50 Avropa ölkəsindən 2 min idmançı, 1500-dən artıq nümayəndə heyəti, ümumilikdə 4 minədək qonağın gələcəyi gözlənilir.

İdmançılar 10 idman növündə (əsas 9, ev sahibi olan ölkəyə əlavə 1 idman növü verilir: atletika, basketbol, velosiped, idman gimnastikası, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol, yunan Roma və sərbəst güləş), 12 idman qurğusunda, 13 proqram üzrə mübarizə aparacaqlar.

Festivala ev sahibliyi edən ölkə bütün yarışlarda əvvəlcədən təsnifat mərhələsi olmadan iştirak etmək hüququnu qazanır. Gənclərə Olimpiya Hərəkatını tanıtmaq, Olimpiya dəyərləri və ideallarını öyrətmək məqsədilə 1990-cı ildə Avropa Olimpiya Komitəsinin sabiq prezidenti Jak Roq tərəfindən Avropa Gənclər Festivalını keçirmək təklifini irəli sürüb. Festival 14-18 yaşlı gənclər arasında Avropa atletləri üçün yüksək səviyyəli çox idman növlü tədbirdir. İlk dəfə festival 1991-ci ildə Belçikanın paytaxtı Brüsseldə keçirilib.

Festival iki ildə bir dəfə, cüt deyil, tək illərdə qışda və yayda keçirilir. Avropa Gənclər Olimpiya Festivalı Avropa Olimpiya Komitəsinə aiddir və Beynəlxalq Olimpiya Komitəsinin himayəsi ilə Avropa Olimpiya Komitəsi adından təşkil olunur.

Festival digər qitələrdə keçirilən Asiya Gənclər Oyunları yaxud Panama Gənclər Oyunlar kimi ənənəni, həmçinin Avropada davam etdirmək imkanını yaradır.

Yarışa hazırlıq işləri ilə daha yaxından tanış olmaq üçün Avropa Olimpiya Komitəsi Əlaqələndirmə Komissiyasının rəhbəri, Serbiya Milli Olimpiya Komitəsinin baş katibi Corce Visaçki, Əlaqələndirmə Komissiyasının üzvü, İslandiya Milli Olimpiya Komitəsinin baş katibi xanım Liney Rut Xalldorsdottir və Əlaqələndirmə Komissiyasının üzvü, Bosniya və Herseqovina Milli Olimpiya Komitəsinin baş katibi Said Fazlaqiç Bakıda səfərdə olublar. Toplantı zamanı festivala hazırlıqla bağlı Təşkilat Komitəsinin gördüyü işlər, idman yarışlarının cədvəli, Atletlər kəndindəki vəziyyət, Milli Olimpiya komitələri arasında əlaqələrin qurulması, könüllülərin yarış proqramı və digər mühüm əhəmiyyət kəsb edən məsələlər müzakirə edilib. Bununla yanaşı, qonaqlar Bakıda olduqları müddətdə Milli Gimnastika Arenası, Bakı Su İdmanı Sarayı, Bakı İdman Sarayı, Atletlər kəndi və bir sıra idman qurğularında da olublar.



## Bakı növbəti dünya çempionatına ev sahibliyi edəcək

***Bakı 2021-ci ildə batut üzərində tullanma və tamblinq üzrə dünya çempionatını qəbul edəcək. Beynəlxalq Gimnastika Federasiyasının (FIG) İcraiyyə Komitəsi bu qərarı Ficidə keçirilən növbəti iclasında qəbul edib. Avropa Gimnastika İttifaqının (UEG) prezidenti Fərid Qayıbov iclasda iştirak edib***

Son üç ildə Azərbaycan paytaxtı "uçan" gimnastlar arasında iri startlara ev sahibliyi edib: 2016-2017-ci illərdə burada Dünya Kuboku yarışları, bu mövsümdə isə Avropa çempionatı keçirilib. Avropa çempionatı ölkəmizin idman həyatında parlaq hadisələrdən birinə çevrilib. Artıq 2021-ci ilin mundialını keçirmək də Bakıya həvalə olunub. Bu çempionat respublikada böyük yarışların təşkili işində yeni səhifə açacaq.

Çempionatın tarixi artıq məlumdur. O, yaş qrupları arasında batut üzərində tullanma üzrə Dünya Oyunları ərəfəsində - noyabrın 11-14-də keçiriləcək. "Uçan" gimnastlar üçün Bakı çempionatı Olimpiadadan sonra ən əhəmiyyətli yarış olacaq. Çempionatda həm adlı-sanlı, həm də gənc idmançılar yarışacaqlar.



FIG-in prezidenti Morinari Vatanabe İcraiyyə Komitəsinin qərarına münasibət bildirərək deyib: "Biz şadıq ki, böyük çempionatları əvvəllər idmanın bu növləri – batut üzərində tullanma və akrobatika üzrə dünya çempionatları keçirməyən ölkələrə etibar ediblər. Belə münasibət həmin idman növlərinin bu regionlarda inkişafına xidmət edir".

Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyeva əmin olduğunu bildirib ki, ölkədə batut gimnastikası və tamblinq üzrə dünya çempionatının keçirilməsi bu idman növünün daha da populyarlaşmasına və inkişafına, habelə idman sahəsində beynəlxalq əlaqələrin möhkəmlənməsinə kömək edəcək.

Beləliklə, Azərbaycan idmanın gimnastika növü üzrə iki çempionatı birdən qəbul edəcək. 2019-cu ildə burada bədii gimnastika üzrə dünya forumu, 2021-ci ildə batut üzərində tullanma və tamblinq üzrə mundial keçiriləcək.

## Olimpiya Oyunlarının cədvəli təsdiq edilib

***Beynəlxalq Olimpiya Komitəsinin (BOK) İcraiyyə Komitəsi 2020-ci ildə Tokioda keçiriləcək Olimpiya Oyunlarının cədvəlini təsdiq edib. 2020-ci il iyulun 22-dən avqustun 9-dək keçiriləcək Olimpiya Oyunlarının proqramına 33 idman növü üzrə 339 yarış daxildir.***

Olimpiada iyulun 24-də açılacaq. Rəsmi açılış mərasimindən iki gün əvvəl – iyulun 22-də futbol və softbol turnirləri başlanacaq. Açılış günündə akademik avarçəkmə və kamandan oxatma yarışları keçiriləcək. Növbəti gün atletlər güllə atıcılığı, stolüstü tennis, cüdo, badminton, gimnastika, tennis və velosiped idmanı da daxil olmaqla 21 idman növündə mükafatlar uğrunda mübarizə aparacaqlar.



Olimpiya proqramında debüt idman növləri olan basketbol 3x3, steytbordinq və sörfinq yarışları birinci həftədə keçiriləcək.

Avqustun 1-də cüdo, triatlon və güllə atıcılığı üzrə qarışıq komanda turnirlərində mükafatların sahibləri məlum olacaq. Yeri gəlmişkən, bu idman növlərinin hər üçü Olimpiya Oyunlarının idman proqramına yeni daxil edilib.

Tokio-2020 Olimpiadasının sonuncu günü kişilərin marafon yarışından başlanacaq. Bu yarış bütün Olimpiadanın kulminasiya nöqtəsi olacaq. Tokioda hər il keçirilən marafon zamanı Yaponiya paytaxtının küçələrində bir milyon insan toplaşır.

## Ən yaxşı futbolçu və məşqçilər

***FIFA ilin ən yaxşı futbolçusu və məşqçisi adına namizədlərin adlarını açıqlayıb.***

FIFA-nın rəsmi saytı xəbər verir ki, 10 oyunçunun adının daxil edildiyi siyahıda braziliyalı Neymarın adı olmayıb. Bunlar Kriştianu Ronaldu ("Yuventus" İtaliya), Kevin De Brüyne ("Mançester Siti", İngiltərə), Antuan Qrizman ("Atletiko", İspaniya), Eden Hazard ("Çelsi", İngiltərə), Harri Keyn ("Tottenhem", İngiltərə), Kilian Mbappe (PSJ, Fransa), Lionel Messi ("Barselona", İspaniya), Luka Modriç ("Real Madrid", İspaniya), Məhəmməd Salah ("Liverpul", İngiltərə) və Rafael Varandır ("Real Madrid").




Məşqçilərin siyahısında isə 11 nəfərin adı yer alıb. Bunlar italiyalı Massimiliano Alleqri ("Yuventus", İtaliya), xorvatiyalı Zlatko Daliç (Xorvatiya milli komandası), fransalı Didye Deşam (Fransa milli komandası), ispaniyalı Xosep Qvardiola ("Mançester Siti", İngiltərə), almaniyalı Yurgen Klopp ("Liverpul", İngiltərə), ispaniyalı Roberto Martines (Belçika milli komandası), argentinalı Dieqo Simeone ("Atletiko", İspaniya), ingiltərəli Qaret Sautqeyt, (İngiltərə milli komandası), ispaniyalı Ernesto Valverde ("Barselona", İspaniya), rusiyalı Stanislav Çerçesov (Rusiya milli komandası) və fransalı Zinəddin Zidandır ("Real Madrid"in sabiq baş məşqçisi, İspaniya).

Qaliblərə mükafatlar sentyabrın 24-də Londonda təqdim olunacaq.

## Suda boğulanlara ilk tibbi yardımı necə göstərməli?

***Dənizdə çimərkən ehtiyatsız davranışlar təhlükəli nəticələrə səbəb ola bilər. Çimərliklərdə, su hövzələrində təhlükəsizlik qaydalarının pozulması və ehtiyatsızlıq suda boğulma hallarının artması ilə nəticələnir. Vaxtında və düzgün yardım göstərməklə suda boğulanları xilas etmək olar.***

Statistikaya əsasən, suda boğulduqdan sonra ilk dəqiqələrdə zərərçəkənlərin 90, 6-7 dəqiqə sonra isə 1-3 faizini həyata qaytarmaq mümkündür.

Çox vaxt suda boğulmağa yorğunluq, suya baş vuran zaman zədə alma, spirtli içkilərdən istifadə, uzun müddət günəş şüaları altında qaldıqdan sonra suya girmə və s. hallar səbəb ola bilər.

Suda boğulma zamanı tənəffüs yolları su ilə dolur, hava ağciyərlərə daxil ola bilmir, nəticədə orqanizmdə oksigen çatışmazlığı yaranır. Belə halla üzləşən zaman qaydalara əməl etməklə zərərçəkəni xilas etmək olar.

Suda boğulanı xilas edərkən üzərək ona arxadan yaxınlaşmaq lazımdır, çünki bəzən boğulanın təlaş içində qeyri-iradi olaraq onu xilas edəndən tutması işi çətinləşdirir və təhlükə yaradır. Yardım göstərərkən suya baş vurmaq və boğulanın əlindən, saçlarından yapışıb təkan verməklə onunla birlikdə suyun üzünə qalxmaq lazımdır. Bu zaman yardım göstərən sərbəst qalanda əli və ayaqları ilə intensiv hərəkət edib üzməlidir. Boğulanı sahilə çıxarandan sonra onun vəziyyətindən asılı olaraq ilk yardım göstərilməlidir.



Əgər zərərçəkənin huşu özündədirsə, tənəffüs və nəbzi qənaətbəxşdirsə, onu arxası üstə quru, sərt döşək üzərində başı aşağı uzatmaq, quru dəsmal və ya əllə ovuşduraraq geyindirmək lazımdır. Zərərçəkənə isti içkilər verib üstünü örtmək tövsiyə olunur. Əgər zərərçəkən sudan çıxarılandan sonra huşsuz vəziyyətdədirsə, amma nəbz və tənəffüsü qənaətbəxşdirsə, bu zaman onu başıaşağıya meyilli olmaq şərtilə uzatmaq, başını arxaya qatlayıb alt çənəsini irəli çəkmək lazımdır. Zərərçəkənin huşu özündə deyilsə, tənəffüs və ürək fəaliyyəti dayanıbsa, tənəffüs yollarını təmizlədikdən sonra ona süni nəfəs verilməli, ürəyin qapalı masajı aparılmalıdır. Əlavə olaraq tənəffüs yollarından mayeni xaric etmək lazımdır. Həmin əməliyyat süni nəfəs verilməsinin gecikdirilməməsi üçün 10-15 saniyədən çox çəkməməlidir. Beləliklə, suda boğulana ilk yardım göstərməklə kritik vəziyyətdən çıxarandan sonra zərərçəkəni xəstəxanaya aparmaq vacibdir.

Təxliyə zamanı zərərçəkən xərəkdə böyrü üstə başının altı alçaq olmaq şərtilə uzadılmalıdır. Məlumatlı olmaq və cəld reaksiya vermək çətin vəziyyətlərdən asanlıqla çıxmağa, özünə və ətrafdakılara vaxtında və lazımi yardım göstərməyə imkan verir.

## Dəniz suyunun sağlamlaşdırıcı təsiri



***Havalar istiləşdikcə istirahət üçün dənizə üz tutanlar çoxalır. Lakin mavi suların qoynu və onun qumlu sahilləri təkcə istirahət həvəskarlarının deyil, sağlamlığına biganə qalmayanların da sevimli məkanıdır.***

Dəniz təkcə havası, qızmar günəşi və isti qumu ilə deyil, həm də suyunun müalicəvi təsiri ilə çimərliyə üz tutanlara xoş duyğular bəxş edir. Su səsi ürəyin ritmini sakitləşdirir, beyni dincəldir və belə olanda orqanizmdə oksigenə tələbat artdığından dərindən nəfəs almaq ehtiyacı yaranır.

Dəniz sahilində təmiz hava zehnin və bədənin gəncləşməsinə səbəb olur. Dəniz suyunun tərkibində insan orqanizmi üçün faydalı olan maddələr var. Dermatoloqların fikrincə, dəri sağlamdırsa və patoloji problem yoxdursa, dəniz suyu heç bir problem yarada bilməz və suda olan yod, duz və minerallar dəriyə müsbət təsir göstərir. Dəniz suyu dəridən toksinlərin xaric edilməsinə və ölü hüceyrələrin təmizlənməsinə də kömək edir. Tərkibindəki minerallar orqanizmi möhkəmləndirir. Bununla yanaşı, onun ən faydalı cəhətlərindən biri də səpgili dəriyə göstərdiyi sağlamlaşdırıcı təsirdir.

Hər dəfə dəniz suyuna girmək orqanizmin enerjisini artırır. Eyni zamanda, dəniz sahilindəki hava qan və toxumaların təmizlənməsinə kömək edən neqativ ionlarla zəngindir. Dənizdəki dalğa axıntısı və dalğaların ritmik rəqsi masaj kimi faydalı təsir göstərir. Dəniz suyu ayaq qoxusu və tər qoxusunun qarşısını alır. Ağızda olan yaraların tez sağalmasına kömək edir. Dəniz suyunda olan yod immuniteti gücləndirir.

Lakin normalara cavab verməyən dəniz suyu insan orqanizminə mənfi təsir edə bilər. Dəridə patologiyalar olanda çirklənmiş dəniz suyunun problemlər yaratması mümkündür, yəni, dəridə müxtəlif yara və dermatozlar əmələ gətirir.

## AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ 160 İLLİYİ ƏRƏFƏSİNDƏ TƏSVİRİ İNCƏSƏNƏT MÜSABİQƏSİ KEÇİRİR

*Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi 160 illik yubileyi ərəfəsində gənc rəssamlar üçün*
*"Gəmiçilik - 160", "Mənim Xəzərim", "Dəniz cəsurları sevir"*
*mövzularında təsviri incəsənət (rəngkarlıq, heykəltəraşlıq, qrafika) müsabiqəsini elan edir.*

*QAYDALAR*

**Təşkilatçı**

Müsabiqə 2018-ci ildə 160 illik yubileyini qeyd edəcək Respublikanın qocaman müəssisəsi olan Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi tərəfindən (bundan sonra - Təşkilatçı) təşkil olunur.

**Məqsəd**

Xəzər dənizçilərinin çətin və spesifik əməyi ilə geniş auditoriyanı yaxından tanış etmək;

Xəzəri əlverişli su yolu, zəngin təbii sərvət qaynağı, gözəl mənzərələr məkanı kimi tərənnüm etmək və qiymətli ekosistem kimi qorunmasının vacibliyini ön plana çəkmək;

Rəssamları dənizçilərin fədakar əməyi ilə dərindən tanış olmağa stimullaşdırmaq;

Gənc və istedadlı rəssamları dəstəkləmək və onların işi ilə geniş auditoriyanı yaxından tanış etdirməkdir.

**Müsabiqədə iştirak etmək üçün şərtlər**

İştirakçılar üçün yaş həddi 17-dən 35-dək müəyyənləşdirilmişdir.

Müsabiqəyə təqdim edilmək üçün hazırlanmış rəsm əsəri böyük hissədə minimum 50 santimetrdən az olmamalıdır.

Müsabiqə üçün işlər avqustun 20-dək Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinə təqdim olunmalıdır.

Müsabiqə üçün əsərlərin elektron variantda fotoşəkli mütləqdir.

Müsabiqə üçün əsərlərin fotoşəkillərini çəkərkən paspartu və çərçivədən istifadə edilməlidir.

İştirakçı özü haqda qısa məlumatı və əlaqə telefonunu göstərməklə əsərlərin fotolarını aşağıda göstərilən email ünvana yollamalıdır.

Email: resmmusabiqesi@acsc.az

**Müsabiqənin keçirilmə müddəti**

Əsərlərin qəbulu 20 may 2018-ci ildən başlayaraq 20 avqust 2018-ci il tarixinədək davam edəcək.

**Tələblər**

Əsərlərin fotoşəkilləri maksimum dərəcədə keyfiyyətli və JPG formatında olmalıdır.

İştirakçı müsabiqəyə yalnız bir mövzu üzrə və müvafiq olaraq bir ədəd iş təqdim edə bilər.

Əsərlərdə müəllifin imzası olmalıdır.

**Seçim prossesi**

Birinci mərhələdə təqdim olunan əsərlər eyni vaxtda olmaqla Facebook (Azerbaijan Caspian Shipping Company / Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi , link- https://www.facebook.com/Azerbaijan.Caspian.Shipping.Company/ ) səhifəsində sentyabrın 1-dən 15-nə kimi açıq səsverməyə çıxarılacaq.

İkinci mərhələdə müsabiqədə iştirak edəcək əsərlər Azərbaycan Respublikasının Rəssamlıq Akademiyası, Azərbaycan Rəssamlar İttifaqı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin nümayəndələrindən ibarət münsiflər heyətinə təqdim olunacaq və onlar tərəfindən qiymətləndiriləcək.

Ümumi müsabiqənin qalibləri Facebook səsvermısinin nəticələri və münsiflərin rəyi ilə müəyyən olunacaq.

Şəffaflığın təmin edilməsi üçün əsərlər səsverməyə kodlaşdırılmış formada çıxarılacaq.

**Müəlliflik hüququ**

Əsərlərə görə hüquq yalnız onların müəlliflərinə məxsusdur. Təşkilatçı isə əsərlərin bukletini çap etmək, onları müxtəlif tədbirlərdə sərgiləmək, fotoşəkillərini tanıtım materiallarında, eyni zamanda sosial şəbəkələrdə istifadə etmək hüququna malikdir. Təşkilatçı təqdim olunan rəsm əsərlərinin fotoşəkillərini təkrar istifadə etmək və sürətini çıxartmaq hüququnu özündə saxlayır.

**Əsərlərin təqdimatı**

Müsabiqəyə təqdim olunan əsərlərin sərgisi təşkil olunacaq.

Təqdim olunan əsərlərdən ibarət kataloq çap olunacaq.

Sərgidə qaliblər mükafatlandırılacaq.

**Mükafatlandırılma**

*"Rəngkarlıq" nominasiyası üzrə:*
1-ci yer - 2000 AZN
2-ci yer - 1000AZN




3-cü yer - 500 AZN
*Həvəsləndirici yerlər*
4-cü yer - 200 AZN
5-ci yer - 100 AZN

***"Heykəltəraşlıq" nominasiyası üzrə:***
1-ci yer - 2000 AZN
2-ci yer - 1000AZN
3-cü yer -500 AZN
*Həvəsləndirici yerlər*
4-cü yer - 200 AZN
5-ci yer - 100 AZN

**"Qrafika" nominasiyası üzrə:**
1-ci yer - 2000 AZN
2-ci yer - 1000AZN
3-cü yer - 500 AZN
*Həvəsləndirici yerlər*
4-cü yer - 200 AZN
5-ci yer - 100 AZN

**Son müddəa**

Müsabiqədə iştirakın özü avtomatik olaraq müəllifin bu QAYDALAR-ın müddəaları ilə tam razılaşdığını bildirir.

**Əlaqə**
Tel: (+99412) 404 37 00
(daxili: 12 46, 12 45)
Ünvan: AZ 1029, Azərbaycan Respublikası, Bakı şəhəri, Heydər Əliyev pr-ti,152
Email: resmmusabiqesi@acsc.az

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1029, Bakı şəhəri,
Heydər Əliyev prospekti, 152
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76;
30-67 (daxili)

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 2319